AZƏRBAYCAN RESPUBLİKASI
AUDİTORLAR PALATASI

# AZƏRBAYCAN RESPUBLİKASINDA AUDİTOR XİDMƏTİNİN İNKİŞAF KONSEPSİYASI
## (2012-2020-ci illər)

BAKI -2013





**“İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir”.**

**Heydər ƏLİYEV,**
**Azərbaycan xalqının**
**ümummilli lideri**

**“Audit sisteminin beynəlxalq təcrübə və standartlar əsasında təkmilləşdirilməsi ölkə iqtisadiyyatında maliyyə şəffaflığını, büdcə vəsaitlərindən təyinatına uyğun istifadəni təmin etməklə, Azərbaycanın iqtisadi qüdrətinin möhkəmlənməsinə xidmət edir”.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

## REDAKSİYA ŞURASI

***Redaksiya şurasının sədri:***

**Vahid Novruzov** - Auditorlar Palatasının sədri.

***Redaksiya şurasının üzvləri:***

**Qəşəm Bayramov** - Auditorlar Palatası Aparatının rəhbəri;
**İlqar Vəliyev** - "Ernst & Yanq Holdinqs (SiAyEs) Bi. Vi." şirkətinin Azərbaycan Respublikasındakı filialının rəhbəri, Palata Şurasının üzvü;
**Aydın Kərimov** - Palata sədrinin müşaviri;
**Namiq Abbaslı** - Sərbəst auditor, Palata Şurasının üzvü;
**Nəcəf Talıbov** - Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri;
**İslam Bayramov** - "HLB Azərbaycan" MMC-nin direktoru;
**Elşad Səmədzadə** - Azərbaycan İqtisadçılar İttifaqı sədrinin müavini, Azərbaycan Dövlət İqtisad Universitetinin dosenti.

## İŞÇİ QRUP

***İşçi qrupun rəhbəri:***

**Qəşəm Bayramov** - Auditorlar Palatası Aparatının rəhbəri.

***İşçi qrupun üzvləri:***

**İlqar Vəliyev** - "Ernst & Yanq Holdinqs (SiAyEs) Bi. Vi." şirkətinin Azərbaycan Respublikasındakı filialının rəhbəri, Palata Şurasının üzvü;
**Namiq Abbaslı** - Sərbəst auditor, Palata Şurasının üzvü;
**Maarif Abbasov** - Palatanın Keyfiyyətə nəzarət və hüquqi təminat idarəsinin rəisi, Palata Şurasının üzvü;
**Səbuhi Gülməmmədov** - Palatanın Kadr hazırlığı və beynəlxalq əlaqələr idarəsinin rəisi, Palata Şurasının üzvü;
**Aydın Kərimov** - Palata sədrinin müşaviri;
**İslam Bayramov** - "HLB Azərbaycan" MMC-nin direktoru;
**Altay Cəfərov** - Sərbəst auditor;
**Camaləddin Axundov** - Palata Aparatı rəhbərinin müavini;
**İlham Hacıəzizov** - Sərbəst auditor;
**Mövlan Paşayev** - "Praysvoterhauskupers Audit Azərbaycan" MMC-nin rəhbəri;
**Mübariz Hacıyev** - Palatanın Auditin təşkili və tənzimlənməsi idarəsinin rəisi;
**Nəcəf Talıbov** - Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri;
**Nuran Kərimov** - "Deloitte & Touche" MMC-nin direktoru;
**Samir Məmmədzadə** - Palatanın Kadr hazırlığı və beynəlxalq əlaqələr idarəsinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri;

| | |
|---|---|
| **Samir Vəliyev** | - "Baker Tılly Audit Azərbaycan" MMC-nin partnyoru; |
| **Vəli Rəhimov** | - Maliyyə və təsərrüfat idarəsinin rəisi; |
| **Vüqar Əliyev** | - "KPMG Azərbaycan Limited" şirkətinin Azərbaycan Respublikasındakı nümayəndəliyinin idarəedici partnyoru; |
| **Yunis Salayev** | - "BDO Azərbaycan" MMC-nin idarəedici partnyoru; |
| **Zamin Hüseynov** | - "MAK Azərbaycan LTD" MMC-nin direktoru; |
| **Elşad Səmədzadə** | - Azərbaycan İqtisadçılar İttifaqı sədrinin müavini, Azərbaycan Dövlət İqtisad Universitetinin dosenti. |

Auditin inkişaf konsepsiyasının əsas məqsədi Azərbaycanda auditor xidmətinin gələcək inkişaf istiqamətlərinin müəyyən olunması, auditor xidməti bazarının genişləndirilməsi, dövlətin, təsərrüfat subyektlərinin və auditorların maraqlarının müdafiə edilməsi, audit sahəsində tənzimləyici fəaliyyətin beynəlxalq təcrübəyə uyğun təkmilləşdirilməsi, auditin beynəlxalq standartların tələblərinə uyğun aparılmasının təmin edilməsi, habelə ölkənin iqtisadi həyatında auditin rolunun və əhəmiyyətinin daha da gücləndirilməsi, şəffaflığın təmin olunmasında və korrupsiyaya qarşı mübarizədə auditin rolunun və auditorların məsuliyyətinin artırılmasının təmin edilməsidir.

Konsepsiyanın əsas müddəaları 2013-cü il 26-28 sentyabr tarixlərində «Daxili nəzarət və risklərin idarə olunması» mövzusunda mühasiblərin və auditorların IV Avrasiya forumunda, Dünya Bankının Maliyyə Hesabatlılıq İslahatları Mərkəzi (CFRR) tərəfindən Şərqi və Cənub-Şərqi Avropa ölkələri üzrə korporativ maliyyə hesabatlılıq və audit sahəsində 2013-cü il 30 sentyabr – 2 oktyabr tarixlərində Avstriyanın Vyana şəhərində «Maliyyə hesabatlılığı və audit yol ayrıcında – Avropada mövcud mənzərə və yeni üfüqlər» mövzusunda regional tədbirdə və bu tədbirin davamı olan «Şərqi tərəfdaşlıq ölkələri üçün audit və hesabatlılıq sistemlərinin gücləndirilməsi» mövzusunda konfransda, 2013-cü ilin 6 noyabr tarixində Buxarest şəhərində Rumıniya Maliyyə Auditorları Palatasının təşkilatçılığı ilə keçirilən beynəlxalq regional peşəkar iclasda tədbir iştirakçılarının müzakirəsinə təqdim olunmuşdur.

*Azərbaycan Respublikası Prezidentinin*
*2012-ci il 5 sentyabr tarixli sərəncamı ilə*
*təsdiq edilmişdir*

# KORRUPSİYAYA QARŞI MÜBARİZƏYƏ DAİR 2012-2015-ci İLLƏR ÜÇÜN MİLLİ FƏALİYYƏT PLANI
## (Ç ı x a r ı ş)

...13. Audit xidmətlərinin təkmilləşdirilməsi

Görüləcək işlər və nəticə indikatorları:

13.1 Müstəqil audit sahəsində beynəlxalq standartların tətbiqi ilə əlaqədar tədbirlərin davam etdirilməsi

İcra: Auditorlar Palatası – mütəmadi

13.2 Beynəlxalq təcrübə nəzərə alınmaqla Auditor xidmətinin inkişaf konsepsiyasının (2012-2020-ci illər) layihəsinin hazırlanması

İcra: Auditorlar Palatası – 2013-cü il

13.3 Məcburi auditdən yayınmaya görə inzibati məsuliyyətin tətbiqi ilə bağlı mexanizmlərin müəyyən edilməsi üçün tədbirlər görülməsi

İcra: Vergilər Nazirliyi, Auditorlar Palatası – 2013-cü il

13.4 Daxili audit haqqında qanunvericiliyin təkmilləşdirilməsi üzrə təkliflərin hazırlanması

İcra: Nazirlər Kabineti, Maliyyə Nazirliyi, Hesablama Palatası, Auditorlar Palatası – 2013-cü il

# G İ R İ Ş

Azərbaycanda həyata keçirilən iqtisadi islahatlar prosesində maliyyə nəzarətinin təkmilləşdirilməsinə mühüm əhəmiyyət verilmiş və nəzarət mexanizmlərinin bazar iqtisadiyyatının xüsusiyyətlərinə uyğunlaşdırılması, o cümlədən müstəqil auditin yaradılması dövlət quruculuğu siyasətində daim diqqət mərkəzində saxlanılan məsələlərdən biri olmuşdur.

Ümummilli liderimiz, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyev tərəfindən imzalanmış «Auditor xidməti haqqında» 1994-cü il 16 sentyabr tarixli Azərbaycan Respublikasının Qanunu ilə ölkəmizdə auditin təməli qoyulmuş, həmin qanuna müvafiq olaraq, 1995-ci il 19 sentyabr tarixində Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə "Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında Əsasnamə" təsdiq edilmiş və 1996-cı il 5 aprel tarixində Auditorlar Palatası fəaliyyətə başlamışdır.

Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 17 iyun tarixində imzalanmış «İstehsal, xidmət, maliyyə-kredit fəaliyyətinə dövlət nəzarətinin qaydaya salınması və əsassız yoxlamaların qadağan edilməsi barədə» fərmanı paralel və lüzumsuz yoxlamaların azaldılmasında, iqtisadi subyektlərin qanuni mənafelərinin qorunmasında mühüm rol oynamışdır.

«Azərbaycan Respublikasının dövlət idarəetmə sistemində islahatlar aparılması üzrə Dövlət Komissiyasının yaradılması haqqında» Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 29 dekabr tarixli fərmanında audit sisteminin islahatı dövlət quruculuğunun dörd əsas istiqamətindən biri kimi qarşıya qoyulmuşdur.

Beynəlxalq standartlara cavab verən nəzarət mexanizmini tətbiq etmək məqsədilə «Dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi və sahibkarlığın inkişafı sahəsində süni maneələrin aradan qaldırılması haqqında» Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 7 yanvar tarixli fərmanı iqtisadiyyatımızda demokratik prinsiplərin bərqərar olması baxımından müstəsna əhəmiyyət kəsb etmişdir.

Bununla da ölkədə həyata keçirilən iqtisadi

siyasətdə yersiz və qanunsuz yoxlama və müdaxilə halları ilə audit arasında hüquqi sədd çəkilmiş, birincilərə qadağa qoyulduğu bir zamanda, auditin əhəmiyyəti və inkişafının zəruriliyi dəfələrlə vurğulanmışdır.

Ötən dövr ərzində ölkəmizdə müstəqil audit bərqərar olmuş və inkişaf etdirilmişdir. Bununla belə, ölkəmizdə auditin inkişafı sahəsində hələ bir sıra aktual problemlər öz konseptual həllini gözləyir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sözləri ilə desək, "Azərbaycan Respublikasının iqtisadiyyatı inkişaf etdikcə və onun dünya təsərrüfat sisteminə inteqrasiyası gücləndikcə iqtisadi-maliyyə münasibətlərində şəffaflığın təmin olunmasında, iqtisadi cinayətkarlığa və korrupsiyaya qarşı mübarizədə auditin imkanlarından daha geniş istifadə etmək zərurəti yaranır. Bunun üçün müstəqil maliyyə nəzarəti sahəsində mütərəqqi dünya təcrübəsini öyrənmək və milli iqtisadiyyatın xüsusiyyətlərini nəzərə almaqla ölkəmizdə tətbiqini genişləndirmək çox vacibdir".

Bu mənada, həyata keçirilən islahatlar idarəetmənin mühüm bir istiqaməti kimi, auditin aktuallığını artırmaqla bərabər, optimal idarəetmə məsələlərinin işlənib hazırlanması və qəbul edilməsi sahəsində onun rolunun yüksəldilməsi zərurətindən irəli gəlir.

1999-2008-ci illərdə Azərbaycan Respublikasında Auditorlar Palatası tərəfindən ilk dəfə olaraq "Azərbaycan Respublikasında audit sisteminin islahatı" konsepsiyası işlənib hazırlanmış və mərkəzi icra hakimiyyəti orqanlarına təqdim edilmişdir. Konsepsiyada audit sisteminin normativ hüquqi bazasının təkmilləşdirilməsi, respublikada beynəlxalq təcrübə əsasında auditin təşkil edilməsi, ölkəmizdə auditor kadrlarının hazırlanması və ixtisasartırmasının istiqamətləri, auditin keyfiyyətinin yüksəldilməsi və ona nəzarətin təkmilləşdirilməsi, daxili və ekoloji auditin təşkil olunması sahələri üzrə geniş və ətraflı təhlil aparılmış, müvafiq tədbirlərin həyata keçirilməsi istiqamətində təkliflər işlənib hazırlanmışdır. Nəzərdə tutulan məsələlərin həlli ölkədə müstəqil auditin beynəlxalq meyarlara uyğun təşəkkülü və inkişafı üçün mühüm rol oynamışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində Azərbaycan auditi özünün keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoymuş, ölkəmizdə şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizədə onun rolu və əhəmiyyəti daha da güclənmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 3 sentyabr tarixli 377 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramında (2004-2006-cı illər)" auditor xidmətinin təkmilləşdirilməsi məqsədilə auditin qanunvericilik bazasının təkmilləşdirilməsi və auditor xidmətinin beynəlxalq audit standartlarına uyğunlaşdırılması, milli audit standartlarının hazırlanmasının başa çatdırılması; Auditorlar Palatasının fəaliyyətinin təkmilləşdirilməsi, onun fəaliyyəti barədə dövri məruzələrin tərtib edilməsi və ictimaiyyətə çatdırılması, auditor təşkilatlarının korrupsiyaya qarşı mübarizə aparan orqanlarla əməkdaşlığının təkmilləşdirilməsi, korrupsiyaya qarşı mübarizə sahəsində öhdəliklərin müəyyən edilməsi, auditorların etik davranış kodeksinin korrupsiyaya qarşı mübarizə ilə bağlı təkmilləşdirilməsi kimi məsələlərin həlli Auditorlar Palatasına tapşırılmışdır.

Eyni zamanda, bu Dövlət Proqramında

daxili audit xidmətinin rəhbərlərinin qulluğa qəbulu və qulluğuna xitam verilməsi prosedurlarının təkmilləşdirilməsi, mühasibat uçotu və maliyyə hesabatlarında şəffaflığın artırılması, mühasibat və statistika uçotu sisteminin beynəlxalq standartlara əsasən yenidən qurulması, «Mühasibat uçotu haqqında» Azərbaycan Respublikası Qanunundan irəli gələn vəzifələrin icrası üçün tədbirlərin həyata keçirilməsi kimi mühüm vəzifələr də Auditorlar Palatasına həvalə edilmişdir.

Nəzərdə tutulmuş bu vəzifələr 2004-2006-cı illərdə Auditorlar Palatası tərəfindən icra olunmuş, müvafiq sənəd layihələri və təkliflər hazırlanaraq aidiyyəti qurumlara təqdim edilmiş, audit praktikasında tətbiqinə nail olunmuşdur. Görülən işlər barəsində müfəssəl hesabatlar Azərbaycan Respublikasının Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyasına təqdim edilmişdir.

Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 28 iyul tarixli 2292 nömrəli sərəncamı ilə təsdiq edilmiş “Milli Strategiya”da da (2007-2011-ci illər) maliyyə nəzarətinin təkmilləşdirilməsi və auditor xidmətinin yaxşılaşdırılması istiqamətində mühüm işlərin görülməsi nəzərdə tutulmuşdur. O cümlədən beynəlxalq audit standartlarının tətbiqinin həyata keçirilməsi və auditor xidmətinin keyfiyyətinin artırılması kimi vəzifələrin icrası ilə əlaqədar:

a) Beynəlxalq standartlara uyğun olaraq daxili audit xidmətinin fəaliyyətini tənzimləyən metodiki göstərişlər və tövsiyə xarakterli vəsaitlərin hazırlanması;

b) Auditorların fəaliyyətinə dair nəzarət sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması;

c) Auditorların məsuliyyətinin artırılması üzrə normativ hüquqi aktların hazırlanması;

ç) Daxili audit xidmətinin fəaliyyətini tənzimləyən normativ hüquqi bazanın təkmilləşdirilməsi;

d) Təsərrüfat subyektlərinin mühasibat uçotu və maliyyə hesabatlarında şəffaflığın təmin olunması kimi konkret tədbirlərin həyata keçirilməsi Auditorlar Palatasına tapşırılmışdır.

Maliyyə nəzarətini həyata keçirən orqanların səlahiyyətlərinin dəqiqləşdirilməsinə və maliyyə nəzarəti mexanizminin təkmilləşdirilməsinə dair təkliflərin hazırlanması işi də digər müvafiq qurumlarla birlikdə Auditorlar Palatasına həvalə edilmişdir.

Bütün bu istiqamətlər üzrə əməli təkliflərin hazırlanması 2007-2011-ci illər ərzində Auditorlar Palatası tərəfindən həyata keçirilərək reallaşdırılması üçün Azərbaycan Respublikasının Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyasına və aidiyyəti üzrə müvafiq qurumlara təqdim edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 2421 nömrəli sərəncamı ilə təsdiq edilmiş «Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı»nda (bundan sonra – “KMFP” adlandırılacaq) auditor xidmətinin təkmilləşdirilməsinə dair bir sıra mühüm vəzifələrin icrası Auditorlar Palatasına və digər müvafiq qurumlara tapşırılmışdır. Belə ki, Maliyyə Nazirliyi və Hesablama Palatası ilə birlikdə daxili audit haqqında qanunvericiliyin təkmilləşdirilməsi üçün təkliflərin hazırlanması, Vergilər Naziriliyi ilə birlikdə məcburi auditdən yayınmaya görə inzibati məsuliyyətin tətbiqi ilə bağlı mexanizmlərin müəyyən edilməsi üçün tədbirlərin görülməsi, habelə müstəqil audit sahəsində beynəlxalq standart-

ların tətbiqi ilə əlaqədar tədbirlərin davam etdirilməsi və “Beynəlxalq təcrübə nəzərə alınmaqla auditor xidmətinin inkişaf konsepsiyası”nın (2012-2020-ci illər) layihəsinin hazırlanması Auditorlar Palatası tərəfindən həyata keçirilməlidir.

KMFP-nin Konsepsiya layihəsinin hazırlanmasına dair 13.2-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2012-ci il 18 dekabr tarixli 238/2 nömrəli qərarı ilə təsdiq edilmiş «Azərbaycan Respublikası Auditorlar Palatasının 2013-2015-ci illər üzrə İş Planı»nın 1.1-ci bəndində həmin konsepsiyanın hazırlanması nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf konsepsiyası Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş «Azərbaycan 2020: gələcəyə baxış» inkişaf konsepsiyasının reallaşdırılması istiqamətində ölkə iqtisadiyyatının tarazlı və dayanıqlı inkişafını təmin etmək, şəffaflığın artırılması, vətəndaş cəmiyyətinin inkişaf etdirilməsi və Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası istiqamətində həyata keçirilən tədbirlərin reallaşmasına dəstək vermək məqsədini daşıyır.

# I. MÜASİR ŞƏRAİTDƏ AUDİTİN VƏZİFƏLƏRİ VƏ İSLAHATLARIN ZƏRURİLİYİ

Bazar iqtisadiyyatının mühüm infrastruktur sahələrindən biri olan auditin gələcək inkişaf istiqamətlərini müəyyən etmək üçün Azərbaycan auditinin qarşısında duran vəzifələrin müəyyənləşdirilməsi böyük əhəmiyyət kəsb edir. Konsepsiya hazırlanarkən auditor xidmətinin qarşısında duran aşağıdakı vəzifələr əsas götürülmüşdür:

- maliyyə hesabatlarının keyfiyyətinə auditin təsirinin gücləndirilməsi;
- maliyyə hesabatlarının dəqiq və dürüst aparılmasının obyektiv və səriştəli yoxlanılması əsasında onların istifadəçilərinin maraqlarının müdafiəsinin təmin edilməsi;
- mühasibat uçotunun aparılmasında və maliyyə hesabatının tərtib edilməsində qanunvericiliyin tələblərinə əməl olunmasını təmin etməklə vergi ödəyicilərinin dövlət qarşısında öhdəliklərinin yerinə yetirilməsinə nail olunması;
- dövlət büdcəsinə və büdcədənkənar fondlara vergi və ayırmaların düzgünlüyünə və müvafiq hesabatlarda dəqiq əks etdirilməsinə nail olunması;
- dövlət büdcəsinin gəlir və xərc maddələrinin formalaşmasında şəffaflığın təmin edilməsinə dəstək göstərilməsi;
- maliyyə hesabatlarının qanunvericiliyə müvafiqliyini təmin etməklə risklərin azaldılmasına nail olunması;
- şəffaf informasiyanın təminatı əsasında iqtisadiyyatın idarə olunmasında və səmərəli qərarların qəbul edilməsində öncül rol oynamaq;
- iqtisadi inkişafın perspektivlərini aşkarlamağa yönəlmiş fəaliyyətin genişləndirilməsi;
- nəticəyə istiqamətləndirilmiş səmərəlilik auditinin genişləndirilməsi;
- müstəqil auditlə korporativ idarəetmə və daxili nəzarətin əlaqələrinin gücləndirilməsi;
- valyuta vəsaitlərindən istifadə edilməsində investisiya qoyuluşu və investisiyaların qorunmasında şəffaflığın təmin edilməsi;
- çirkli pulların yuyulması və korrupsiyaya qarşı mübarizə istiqamətində qanunvericiliklə müəyyən olunmuş öhdəliklərin tələb olunan səviyyədə yerinə yetirilməsi (müvafiq qurumlarla birlikdə);
- maliyyə sferasında fırıldaqçılığın aşkar edilməsi və qarşısının alınmasına istiqamət-

ləndirilmiş auditin inkişaf etdirilməsi;

- audit subyektlərində korrupsiyaya uğrama riski daha yüksək olan sahələrdə müvafiq audit prosedurlarının sərtləşdirilməsi;
- korrupsiyaya şərait yaradan halların aradan qaldırılmasında qabaqlayıcı tədbirlərin həyata keçirilməsi;
- auditor xidmətinin keyfiyyətinin yüksəldilməsi;
- beynəlxalq audit standartlarının tələblərinə uyğun xidmət göstərilməsi istiqamətində auditorların peşə-ixtisas səviyyəsinin yüksəldilməsi;
- haqsız rəqabət və keyfiyyətsiz audit hallarının aradan qaldırılması məqsədilə Peşəkar Mühasiblərin Etika Məcəlləsinin tələblərinə tam riayət edilməsinə nail olunması;
- audit prosesində informasiya texnologiyalarından geniş istifadə edilməsi;
- kiçik və orta müəssisələrdə audit üzrə IFAC standartlarının tətbiqinə nail olunması;
- maliyyə, mühasibat, vergiqoyma və digər əlaqəli xidmətlər üzrə məsləhət xidmətləri göstərilməsinin genişləndirilməsi.

***Auditor xidməti sahəsində zəruri islahatların əsas istiqamətləri:***

**I. Cəmiyyətdə audit**

1.1. auditə ictimai etimadın gücləndirilməsi və nüfuzunun yüksəldilməsi;

1.2. ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsində auditin rolunun artırılması;

1.3. audit tərəfindən cəmiyyətdə iqtisadi demokratiyanın genişləndirilməsinə rəvac verilməsi və vətəndaş cəmiyyəti təsisatları ilə əməkdaşlığın dərinləşdirilməsi;

1.4. korporativ idarəetmədə müxtəlif tərəflərin maraqlarının maksimum qorunmasının təmin edilməsində auditin rolunun gücləndirilməsi;

1.5. auditin mahiyyəti və əhəmiyyəti barədə sahibkarların maarifləndirməsi;

1.6. gənclərin və qadınların audit işinə daha geniş cəlb edilməsi;

1.7. ictimai əhəmiyyətli qurumlara məcburi audit üzrə xidmətlər göstərən auditor fəaliyyəti subyektlərinə nəzarətin gücləndirilməsi (müvafiq qurumlarla birlikdə).

**II. Audit qanunvericiliyi**

2.1. auditin statusunun yüksəldilməsi;

2.2. auditdə müxtəlif tərəflərin maraqlarının uzlaşdırılması;

2.3. auditin növləri arasında əməkdaşlığın genişləndirilməsi (müvafiq qurumlarla birlikdə);

2.4. auditin əhatə dairəsinin və auditor xidmətləri bazarının genişləndirilməsi;

2.5. auditor fəaliyyətini tənzimləyən normativ hüquqi aktların təkmilləşdirilməsi (müvafiq qurumlarla birlikdə).

**III. Auditin təşkili və tənzimlənməsi**

3.1. auditor xidməti sahəsində qanunsuz sahibkarlıq fəaliyyəti kimi neqativ hallara qarşı mübarizə (müvafiq qurumlarla birlikdə);

3.2. audit sahəsində əlaqəli xidmətlərin genişləndirilməsi;

3.3. mühasibat uçotu və maliyyə hesabatlarında şəffaflığın təmin edilməsində auditorların məsuliyyətinin artırılması;

3.4. auditin təşkilinin qabaqcıl forma və metodlarının tətbiqi;

3.5. auditdən yayınma hallarının qarşısının alınması (müvafiq qurumlarla birlikdə);

3.6. auditin regional inkişaf problemlərinin həlli (müvafiq qurumlarla birlikdə);

3.7. xidmət bazarında sağlam rəqabət mühitinin formalaşdırılması;

3.8. auditor xidmətinin tənzimlənməsinin təkmilləşdirilməsi;

3.9. audit prosesində şəffaflığın artırılması;

3.10. auditin tənzimlənməsi və idarə olunmasında etik normalara əməl olunması;

3.11. milli auditin rəqabət qabiliyyətinin

yüksəldilməsi və milli audit bazarının dünya bazarına inteqrasiyasının sürətləndirilməsi;

3.12. transmilli və xarici audit şirkətləri ilə milli audit arasında əməkdaşlığın genişləndirilməsi;

3.13. auditor fəaliyyətinə dair metodoloji tövsiyələrin və materialların hazırlanması.

**IV. Auditin keyfiyyəti**

4.1. auditor xidmətinin keyfiyyətinə və auditorların fəaliyyətinə dair nəzarətin beynəlxalq tələblərə uyğunlaşdırılması;

4.2. auditin keyfiyyətinə ictimai nəzarətin təkmilləşdirilməsi;

4.3. auditin keyfiyyətini müəyyən edən amillərin (auditor mədəniyyəti, audit partnyorlarının və işçilərin peşəkarlığı, auditin səmərəliliyi, auditor hesabatlarının etibarlılığı və s.) təsir səviyyəsinin yüksəldilməsi.

**V. Beynəlxalq təcrübənin tətbiqi**

5.1. müstəqil maliyyə nəzarəti sahəsində mütərəqqi dünya təcrübəsinin öyrənilməsi və tətbiqinin genişləndirilməsi (müvafiq qurumlarla birlikdə);

5.2. auditorlar tərəfindən beynəlxalq audit standartlarının, maliyyə hesabatlarının beynəlxalq standartlarının və Peşəkar Mühasiblərin Etika Məcəlləsinin tələblərinə riayət edilməsinə nail olunması;

5.3. auditor adı almaq üçün meyarların beynəlxalq tələblər nəzərə alınmaqla təkmilləşdirilməsi;

5.4. kiçik və orta müəssisələrdə audit üzrə IFAC standartlarının tətbiqi;

5.5. Azərbaycanın Avropaya inteqrasiya təşəbbüsünün təmin edilməsi məqsədilə Avropa Şurasının məcburi audit sahəsində direktivlərinin tələblərinin və BAS-ın qanunverici təminatı (müvafiq qurumlarla birlikdə).

**VI. Korrupsiyaya qarşı mübarizə**

6.1. çirkli pulların yuyulması və korrupsiyaya qarşı mübarizə üzrə audit sahəsində müvafiq dövlət qurumları ilə birgə əməkdaşlığın gücləndirilməsi.

Yuxarıda göstərilən vəzifələrin həlli audit sistemində köklü islahatların aparılmasını zəruri etmişdir.

# II. AZƏRBAYCANDA AUDİTOR XİDMƏTİNİN MÜASİR VƏZİYYƏTİ

2012-ci ildə göstərilmiş auditor xidmətinin həcmində məcburi auditin xüsusi çəkisi 73%, könüllü auditin xüsusi çəkisi 15%, digər xidmətlər isə 12 faiz təşkil etmişdir. Göründüyü kimi, hələ də Azərbaycanın auditor xidməti bazarında könüllü auditin xüsusi çəkisi aşağı olmaqda davam edir ki, bu da inkişaf etmiş ölkələrdə olduğundan xeyli aşağıdır. Bütün bunlar ölkədə auditə ictimai marağın arzuolunan səviyyədə olmadığından və auditorlara müraciətin əsasən qanunvericiliyin tələbindən irəli gəlməsinə dəlalət edir.

**2012-ci ildə göstərilmiş auditor xidmətinin tərkibi (min manatla)**



**2012-ci ildə göstərilmiş auditor xidmətinin tərkibi (%-lə)**




Azərbaycanda milli auditin yetərli səviyyədə inkişaf etməməsinə sübut olaraq göstərmək olar ki, 2012-ci ildə icra olunmuş müqavilələrin ümumi məbləğində milli auditorların göstərdikləri xidmətlərin xüsusi çəkisi cəmi 15% təşkil edir (yerli auditor təşkilatları 10%, sərbəst auditorlar 5%). Halbuki xarici auditor təşkilatlarının filial və ya nümayəndəliklərinin və xarici investisiyalı auditor təşkilatlarının Azərbaycanın auditor xidməti bazarında birgə payı 85% təşkil edir (xarici auditor təşkilatlarının filial və ya nümayəndəlikləri 48%, xarici investisiyalı auditor təşkilatları 37%).

**İcra olunmuş müqavilələr (audit subyektlərinin xüsusi çəkisi)**



**2012-ci ildə göstərilmiş auditor xidmətinin həcmində audit subyektlərinin payı (min manat)**

| | | *müqavilələrin sayı* | *müqavilələrin məbləği* | *orta müqavilə məbləği* |
|---|---|---|---|---|
| 1. | Xarici auditor təşkilatlarının filialları (və ya nümayəndəlikləri) üzrə | 292 | 13866 | 47,5 |
| 2. | Xarici investisiyalı auditor təşkilatları üzrə | 474 | 10653 | 22,5 |
| 3. | Yerli auditor təşkilatları üzrə | 1257 | 2824,5 | 2,2 |
| 4. | Sərbəst auditorlar üzrə | 1132 | 1559,5 | 1,0 |
| | Cəmi | 3155 | 28903,0 | 9,2 |

Bu faktın özü Azərbaycanda milli auditin inkişafı sahəsində ciddi problemlərin mövcudluğuna dəlalət edir.

Azərbaycanın auditor xidməti bazarında mövcud olan problemlərdən biri də orta müqavilə məbləğlərinin audit subyektləri arasında kəskin fərqlənməsi kimi neqativ halın mövcud olmasıdır. Belə ki, icra olunmuş müqavilələrin say tərkibində yerli auditorların xüsusi çəkisi 82%, o cümlədən yerli auditor təşkilatları 28%, sərbəst auditorlar 54% təşkil edir (xarici auditor təşkilatlarının filial və ya nümayəndəlikləri 7%, xarici investisiyalı auditor təşkilatları 11% ).

**İcra olunmuş müqavilələrin say tərkibi (%-lə)**



Göründüyü kimi, xarici auditor təşkilatlarının filial və ya nümayəndəliklərinin icra etdikləri orta müqavilə məbləğləri milli auditor təşkilatlarından 21,6 dəfə, sərbəst auditorlar üzrə göstəricidən isə 47,5 dəfə çoxdur. Xarici investisiyalı auditor təşkilatlarının orta müqavilə məbləğləri də yerli təşkilatların və sərbəst auditorların orta müqavilə məbləğlərini nəzərəçarpacaq dərəcədə üstələyir (yerli auditor təşkilatlarını 10,2 dəfə, sərbəst auditorları 22,5 dəfə). Bu fərqlər bir auditora düşən müqavilə məbləğlərində də özünü büruzə verir.

**Bir auditora düşən orta müqavilə məbləği (min manatla)**

| | | *auditorların sayı* | *Bir auditora düşən orta müqavilə məbləği* |
|---|---|---|---|
| 1. | Xarici auditor təşkilatlarının filialları (və ya nümayəndəlikləri) üzrə | 9 | 1540,7 |
| 2. | Xarici investisiyalı auditor təşkilatları üzrə | 15 | 710,2 |
| 3. | Yerli auditor təşkilatları üzrə | 40 | 70,6 |
| 4. | Sərbəst auditorlar üzrə | 44 | 35,4 |

Belə ki, bir auditora düşən icra olunmuş müqavilə məbləği xarici auditor təşkilatlarının filial və ya nümayəndəliklərində 1540,7 min manat, xarici investisiyalı auditor təşkilatında isə 710,2 min manat təşkil etdiyi halda, bu göstərici yerli auditor təşkilatlarında 70,6 min manat, sərbəst auditorlarda isə 35,4 min manat təşkil edir.

Bütövlükdə son illərdə ölkəmizin auditor xidməti bazarında inkişaf göstəriciləri aşağıdakı cədvəl və diaqramda öz əksini tapmışdır:

| | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 |
|---|---|---|---|---|---|---|---|---|
| Müqavilələrin sayı | 3512 | 3981 | 4184 | 3969 | 3752 | 2831 | 2869 | 3155 |
| Müqavilələrin məbləği (min manatla) | 8074,0 | 12702,5 | 15772,6 | 38147,1 | 23655,8 | 25556,9 | 21005,4 | 28903,0 |



Diaqramdan göründüyü kimi, auditor xidməti bazarının inkişaf sürəti 2005-ci ildən başlayaraq artmaqdadır.

Azərbaycanda auditin müasir problemlərindən biri də auditor peşəsinə marağın arzuolunan səviyyədə olmaması və auditor xidməti göstərmək üçün lisenziya almaq istəyənlərin sayının həddən artıq aşağı səviyyədə olmasıdır.

Digər ölkələrdən fərqli olaraq, Azərbaycanda auditor adı almaq üçün lisenziya almaq arzusunda olanların sayı həddən artıq aşağıdır (əksər ölkələrdə auditor adı almaq üçün imtahanlar çoxpilləlidir və Azərbaycanda olduğundan daha sərt şərtlər daxilində həyata keçirilir).

**Verilmiş yeni lisenziyalar**

| | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|
| Sərbəst auditorlar | 10 | 2 | 15 | 12 | 7 |
| Auditor təşkilatları | 4 | 6 | 6 | 3 | 5 |




Cədvəldən göründüyü kimi, son 5 ildə Azərbaycanda 46 nəfər fərdi şəxs və 24 təşkilat auditor lisenziyası almışdır. Onu da göstərmək lazımdır ki, lisenziya almış auditorların bir çoxu müxtəlif səbəblərdən lisenziyalarını geri qaytarmış, bir sıra təşkilatlar isə fəaliyyətlərini dayandırmışdır. Auditorların yaş və gender tərkibi də arzuolunan səviyyədə deyildir. Belə ki, hal-hazırda fəaliyyət göstərən 108 auditordan cəmi 5-i və ya 4,6%-ni qadınlar təşkil edir. 40 yaşadək olan auditorların xüsusi çəkisi isə 38% təşkil edir.

**Auditorların yaş və gender tərkibi**

| | Cəmi | O cümlədən qadınlar |
|---|---|---|
| 30 yaşadək | 22 | 3 |
| 40 yaşadək | 19 | 1 |
| 50 yaşadək | 47 | 1 |
| 60 yaşadək | 11 | 0 |
| 60 yaşdan yuxarı | 9 | 0 |
| | 108 | 5 |




Mövcud qanunvericiliyə görə, respublikamızda fəaliyyət göstərən bir sıra təşkilati-hüquqi formalı iqtisadi subyektlərin, o cümlədən hesabatlarını mətbuatda dərc etdirməli olan hüquqi şəxslərin (banklar, sığorta təşkilatları, açıq tipli səhmdar cəmiyyətləri), kapitalında xarici investisiya olan müəssisələrin, məhdud məsuliyyətli cəmiyyətlərin, dövriyyəsi və aktivləri qanunvericiliklə müəyyən edilmiş həddən yüksək olan qurumların, bələdiyyələrin və s.) auditor yoxlamasından keçməsi məcburi xarakter daşıyır.

Azərbaycan Respublikası Vergilər Nazirliyinin təqdim etdiyi materiallar əsasında Auditorlar Palatasında aparılmış ilkin araşdırmalar nəticəsində qanunvericiliyə uyğun olaraq məcburi auditin obyekti olan təsərrüfat subyektlərinin auditdən yayınması hallarının kütləvi xarakter daşıdığı müəyyən edilmişdir.

2012-ci ilin 1 yanvar tarixinə məcburi audit obyektlərinin auditdən keçmə faizləri (2007, 2008, 2009, 2010, 2011-ci illər üzrə) aşağıdakı kimi olmuşdur:

| **Sıra №-si** | **Məcburi audit obyektinin təşkilati-hüquqi forması** | **2007 auditdən keçmə %-i** | **2008 auditdən keçmə %-i** | **2009 auditdən keçmə %-i** | **2010 auditdən keçmə %-i** | **2011 auditdən keçmə %-i** | **2012 auditdən keçmə %-i** |
|---|---|---|---|---|---|---|---|
| 1 | səhmdar cəmiyyətlər | 25,13 | 23,89 | 21,0 | 29.1 | 30.1 | 29,3 |
| 2 | filial və nümayəndəliklər | 28,54 | 27,77 | 21,26 | 39.3 | 36.9 | 33,5 |
| 3 | xarici investisiyalı müəssisələr | 14,73 | 13,53 | 10,13 | 9.4 | 10.7 | 9,8 |
| 4 | məhdud məsuliyyətli müəssisələr | 4,09 | 3,80 | 2,28 | 2.9 | 3.1 | 2,3 |
| 5 | digər idarə və müəssisələr | 3,26 | 2,99 | 3,35 | 3.5 | 3.5 | 3,4 |
| 6 | sığorta təşkilatları | 100 | 100 | 100 | 100 | 100 | 100 |
| 7 | birgə müəssisələr | 29,06 | 26,29 | 15,38 | 11.5 | 19.7 | 20,7 |
| 8 | bələdiyyələr | 50,09 | 52,39 | 55,68 | 64.6 | 62.3 | 70,6 |
| 9 | bank və kredit təşkilatları | 100 | 100 | 100 | 100 | 100 | 100 |
| Cəmi: | | 11,49 | 11,46 | 9,31 | 9.8 | 9.9 | 6,6 |

# III. AZƏRBAYCANDA AUDİTOR XİDMƏTİNİN İNKİŞAFINA MANE OLAN PROBLEMLƏR

***3.1. Qanunvericilikdə olan boşluqlar***

Auditor xidmətinin ölkəmizdə tənzimlənməsi məqsədilə 1994-cü il 16 sentyabr tarixində "Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Ümummilli lider Heydər Əliyev tərəfindən imzalanmış bu Qanun auditor xidmətinin təşəkkülü, təşkili, tənzimlənməsi və bütövlükdə, auditin normativ hüquqi bazasının formalaşmasında əvəzsiz rol oynamış və bu gün də öz aktuallığını qoruyub saxlamışdır.

Ötən dövr ərzində Azərbaycanda auditin normativ hüquqi bazası yaradılmış, audit müstəqil maliyyə nəzarət sistemi kimi formalaşmışdır.

Belə ki, auditin ölkə iqtisadiyyatının mühüm infrastrukturu kimi cəmiyyətin həyatında oynadığı rol və vəzifələri 20-dən artıq qanunda, o cümlədən "Auditorun peşə məsuliyyətinin icbari sığortası haqqında", "Daxili audit haqqında", habelə Mülki Məcəllə, "Qiymətli kağızlar haqqında", "Banklar haqqında", "Mühasibat uçotu haqqında", "Maliyyə-sənaye qrupları haqqında", "Prokurorluq haqqında", "Kredit ittifaqları haqqında", "Büdcə sistemi haqqında" və Azərbaycan Respublikasının digər qanunlarında təsbit olunmuşdur. Eyni zamanda, ötən dövr ərzində iqtisadi-maliyyə həyatında və qanunçuluq sferasında baş verən dəyişikliklər nəzərə alınmaqla və beynəlxalq təcrübəyə uyğun olaraq "Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununa çoxsaylı əlavə və dəyişikliklər edilmişdir.

Bununla belə, iqtisadi-maliyyə sferasında baş vermiş dinamik inkişaf digər sahələrdə olduğu kimi audit sahəsində də normativ hüquqi bazanın zamanın tələblərinə uyğun olaraq yenilənməsini və təkmilləşdirilməsini qarşıya bir vəzifə olaraq qoymuşdur.

Azərbaycan Respublikası Auditorlar Palatasının **Beynəlxalq Mühasiblər Federasiyasına (IFAC)** tamhüquqlu üzvlüyü ilə əlaqədar yaranan öhdəliklər, BAS-ın Azərbaycan dilinə tərcüməsi və 2010-cu ilin 1 yanvar tarixindən ölkəmizdə auditin beynəlxalq audit standartlarına uyğun olaraq aparılmasına keçilməsi, audit sahəsində qabaqcıl təcrübənin ölkəmizdə tətbiqi və auditin statusunun genişləndirilməsi zərurəti kimi amillər "Audi-

tor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununa əlavə və dəyişikliklər edilməsini aktuallaşdırmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2012-ci il 5 sentyabr tarixli 2421 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nda da auditor xidmətinin təkmilləşdirilməsinin bir vəzifə olaraq Auditorlar Palatası qarşısında qoyulması bu xidmət sahəsində normativ hüquqi aktların zamanın tələblərinə uyğunlaşdırılmasını zəruri etmişdir.

Bununla belə, audit sahəsində qanunvericilik bazasında bir sıra boşluq və çatışmazlıqlar mövcuddur ki, bunlar da auditor xidmətinin göstərilməsində və onun tənzimlənməsinin həyata keçirilməsində ciddi problemlər yaradır. Bunlara, ilk növbədə, aşağıdakılar aiddir:

1. Auditor xidmətinin göstərilməsində beynəlxalq audit standartlarının və Peşəkar Mühasiblərin Etika Məcəlləsinin tətbiqinin qanunvericilikdə təsbit olunmaması.

2. Auditor təşkilatları yaradılarkən və fəaliyyət göstərərkən onların tərkibində lisenziyalı auditorun olması tələbinin təsbit edilməməsi.

3. Auditor xidməti göstərilməsi prosesində məcburi audit subyektlərinin rəhbərlərinin və vəzifəli şəxslərin hüquq, vəzifə və məsuliyyətinin qanunvericilikdə təsbit olunmaması.

4. Auditor xidmətinin keyfiyyətinə nəzarət sisteminin tətbiqinin zəruriliyinin qeyd olunmaması.

5. Audit sahəsində antiinhisar və ədalətli rəqabətin təmin edilməsi istiqamətində qanunvericilikdə müddəaların olmaması.

6. Auditor təşkilatlarında daxili nəzarət sisteminin zəruriliyinin qanunvericilikdə təsbit olunmaması.

7. Audit prosesində şəffaflığın təmin edilməsi üzrə müddəaların qanunvericilikdə əks olunmaması.

8. Auditorların korrupsiyaya qarşı mübarizə sahəsində öhdəlik və məsuliyyətinin qanunvericilikdə müəyyən edilməməsi.

9. Auditorların peşəkarlıq səviyyəsinin artırılması və davamlı təhsilin icbariliyi haqqında qanunvericilikdə müddəaların olmaması.

10. Auditorlar Palatasının öz fəaliyyəti barədə ictimaiyyət qarşısında hesabatlılığının qanunvericilikdə təsbit olunmaması.

11. Fəaliyyətin əsas meyar göstəriciləri olan illik dövriyyə həcmi, işçilərin sayı ilə bağlı auditin əhatə dairəsinin dəqiqləşdirilməsi üzrə hüquqi mexanizmin olmaması.

12. Qanunvericiliklə nəzərdə tutulduğu hallarda məcburi auditin obyektləri tərəfindən maliyyə hesabatlarının müstəqil auditor hesabatı ilə birlikdə dərc etdirilməsi ilə əlaqədar məsuliyyətin qanunvericilikdə əks olunmaması.

13. Müstəqil auditorlarla təsərrüfat subyektlərinin audit komitələri və daxili auditorları arasında əlaqələrə dair müddəaların olmaması.

14. Müstəqil auditorun hesabatının təsərrüfat subyektinin maliyyə hesabatlarının tərkib hissəsi kimi tanınmaması.

Audit qanunvericiliyinə beynəlxalq təcrübəyə uyğun olaraq aşağıdakı istiqamətlərdə yenidən baxılmalıdır:

- auditor təşkilatının yaradılması:
- sərbəst auditor olmağın şərtləri;
- sərbəst auditor adını almaq üçün imtahanların təşkili;
- auditor rəyi və hesabat haqqında müddəalar;
- auditorların hüquqları, vəzifələri və məsuliyyəti;
- auditor xidməti sahəsində qadağaların beynəlxalq təcrübəyə uyğunlaşdırılması;

- Auditorlar Palatasının fəaliyyətinə ictimai nəzarəti təmin edən maddə daxil edilməklə sərbəst auditorların və auditor təşkilatlarının fəaliyyətinə nəzarət sisteminin təkmilləşdirilməsi;

- məcburi auditin subyektlərini müəyyən edən ayrı-ayrı qanunvericilik aktlarındakı müddəaların "Auditor xidməti haqqında" Qanunda cəmləşdirilməsi və məcburi audit subyektlərinin adlarının həmin qanunda əks olunması.

### *3.2. Məcburi auditdən keçmənin aşağı olması*

Aparılan araşdırma və sosioloji sorğular nəticəsində məcburi auditdən yayınmanın (bu haqda bax: 2-ci bölmə) bir sıra səbəbləri müəyyən edilmişdir. O cümlədən:

1. Auditin predmeti olan mühasibat uçotu və hesabatlılığı sahəsində, xüsusilə maliyyə hesabatlarının təqdim edilməsi prosedurlarında boşluqların olması;

2. Təsərrüfat subyektləri rəhbərlərinin öz maliyyə hesabatlarının şəffaflığının təmin edilməsi sahəsində qanunvericiliyn tələblərinə əməl etməmələri;

3. Auditor xidmətinin keyfiyyətinin qənaətbəxş olmaması;

4. Auditlə əlaqədar maarifləndirmə, təbliğat və təşviqat işinin zəif olması;

5. Auditor xidməti istifadəçilərinin auditə inamının yetərli olmaması;

6. Bəzi auditorların peşə səviyyəsinin aşağı olması,

7.Təsərrüfat subyektləri tərəfindən auditin real sektora faydasının lazımınca dəyərləndirilməməsi və s.

Təcrübə göstərir ki, auditdən yayınmanın ən əsas səbəbi auditin predmeti olan mühasibat uçotu və hesabatlılığı sahəsində, xüsusilə maliyyə hesabatlarının təqdim edilməsi prosesində boşluqların olmasıdır. Statistik məlumatlara əsasən, ölkəmizdə auditdən keçmənin ən yüksək faizi banklar və sığorta cəmiyyətləri üzrədir. Daha sonra bu sıraya bələdiyyələr, səhmdar cəmiyyətləri və xarici investisiyalı müəssisələr (xarici təşkilatların filial və nümayəndəlikləri) daxildir. Bank və sığorta təşkilatlarının auditdən, demək olar ki, 100% keçməsinin bir izahı var: bu təşkilatlar fəaliyyət növlərinə görə beynəlxalq əməliyyat sistemlərinə daha çox inteqrasiya olunublar və öz maliyyə hesabatlarını məcburi qaydada tənzimləyici orqanlara – Mərkəzi Banka və Maliyyə Nazirliyinə verməyə borcludurlar. Bu tənzimləyicilər, öz növbələrində, qanunun aliliyini təmin etmək, habelə xarici tərəfdaşları qarşısında öhdəliklərini yerinə yetirmək üçün tabeliklərində olan təşkilatların maliyyə hesabatlarını auditorun hesabatı (rəyi) olmadan qəbul etmirlər. Eyni hala qismən də olsa, digər qurumlarda da rast gəlinir: Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzi bələdiyyələrdən, Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi emitentlərdən, Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi mülkiyyətçisi tam və ya qismən dövlət olan səhmdar cəmiyyətlərindən auditor rəyi ilə təsdiq olunmuş maliyyə hesabatlarını tələb edirlər. Bu sırada növbəti qurumlar isə xarici investisiyalı müəssisələrdir (xarici təşkilatların filial və nümayəndəlikləridir). Onların auditdən keçmə faizi nisbətən aşağı (20-30%) olsa da, məcburi audit subyekti olan məhdud məsuliyyətli müəssisələrdən (2-6%) əhəmiyyətli dərəcədə yüksəkdir. Səbəbi isə, bir tərəfdən, xarici sahibkarların audit barədə daha dolğun təsəvvürə malik olmaları, digər tərəfdən isə xarici ölkələrin rezidenti olan baş ofisə təqdim olunan maliyyə hesabatlarının məcburi qaydada auditor tərəfindən təsdiqi tələbidir. Bu faktları Palata tərəfindən aparılmış sorğuların materialları da təsdiq edir.

Respublikamızda xüsusi çəkisinə görə məcburi audit subyektlərinin içərisində birinci yerdə duran qurumlar məhdud məsuliyyətli cəmiyyətlərdir. Son məlumatlara əsasən, onların sayı 42 mindən çoxdur ki, bu da ümumi məcburi audit subyektlərinin təxminən 90%-ni təşkil edir. Onların auditdən keçmə faizi ildən-ilə azalmaqla, 2011-ci ildə 3,1% təşkil etmişdir. Zənnimizcə, belə vəziyyətin əsas səbəbi məhdud məsuliyyətli cəmiyyətlərin öz maliyyə hesabatlarını yalnız təsisçi üçün tərtib etmələri, yəni dövlət orqanına təqdim etmək barədə heç bir öhdəliklərinin olmamasıdır.

Qeyd olunanlar belə nəticəyə gəlməyə imkan verir ki, auditin predmeti olan mühasibat uçotu və hesabatlılığı sahəsində, xüsusilə maliyyə hesabatlarının təqdim edilməsi sistemində boşluqların aradan qaldırılması auditdən yayınmanın qarşısının alınmasının ən kəsərli yoludur. Bunu xarici təcrübə də təsdiq edir: Özbəkistan Respublikasında maliyyə hesabatlılığı sahəsində islahatdan sonra göstərilən auditor xidmətinin həcmi təxminən 10 dəfə artmışdır. Auditor rəyinin qanunvericiliklə maliyyə hesabatlarının tərkib hissəsi sayılan Ukraynada auditdən keçmə faizi ölkə üzrə 100%-ə yaxındır. İnkişaf etmiş ölkələrdə isə, ümumiyyətlə, belə statistika, zərurət olmadığı üçün aparılmır.

Nəzərə alınmalıdır ki, "Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə dəyişiklik və əlavələr edilməsi barədə Azərbaycan Respublikasının 2011-ci il 11 fevral tarixli 65-IVQD nömrəli Qanunu ilə (Maddə 247-3. Məcburi auditdən yayınma) qanunla nəzərdə tutulmuş hallarda həyata keçirilməli olan məcburi auditdən yayınmağa görə vəzifəli şəxslərin üç yüz manatdan altı yüz manatadək miqdarda, hüquqi şəxslərin min beş yüz manatdan iki min beş yüz manatadək miqdarda cərimə edilməsi təsbit olunmuşdur. Cərimənin tətbiq mexanizminin müəyyən edilməsi isə Vergilər Nazirliyinə və Auditorlar Palatasına tapşırılmışdır.

Təsərrüfat subyektləri rərbərlərinin öz maliyyə hesabatlarının şəffaflığının təmin edilməsi sahəsində qanunvericiliyn tələblərinə əməl etməmələri təqdim olunan cədvəldə özünü əyani şəkildə göstərir. Nəzərə alınmalıdır ki, Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın 13.3-cü ("Məcburi auditdən yayınmaya görə inzibati məsuliyyətin tətbiqi ilə bağlı mexanizmlərin müəyyən edilməsi üçün tədbirlər görülməsi") bəndində qanunvericiliyə uyğun olaraq, məcburi auditin obyekti olan təsərrüfat subyektlərinin auditdən yayınması hallarının qarşısının alınması üçün tədbirlərin görülməsi nəzərdə tutulmuşdur.

Lakin bu sahədə real nəticələr əldə olunmamışdır.

Digər vacib bir amil auditor xidməti istifadəçilərinin auditə inamının zəif olmasıdır. Son illərdə dünyada gedən iqtisadi proseslər və baş vermiş maliyyə böhranları bütövlükdə auditə inamın azalmasına səbəb olmuşdur. Bu səbəbin aradan qaldırılması hazırda iqtisadçıların diqqətindədir. Buna sübut olaraq Avropa İttifaqında auditlə bağlı «yaşıl sənəd»ə verilən diqqət və onun nəticəsində auditə dair 43-cü direktivə ((2006/43/EC) - İllik və konsolidə edilmiş hesabatların icbari auditi üzrə Avropa Parlamenti və Şurasının 17 may 2006-cı il tarixli Direktivi) edilməsi təklif olunan və 2013-cü ildə qəbul edilmiş əlavə və dəyişiklikləri göstərmək olar. Respublikamızda da bu səbəb diqqətdən kənarda qalmamalıdır.

***3.3. Auditor xidməti sahəsində haqsız rəqabət və maraqların toqquşması***

Aparılan araşdırmalar və sosioloji sorğular nəticəsində müəyyən edilmişdir ki, Azərbaycanda auditor fəaliyyətində haqsız rəqabət aşağıdakı formalarda təzahür edir:

1. Rəqib auditorun digər auditor və ya auditor təşkilatının fəaliyyətinin təqlidi formasında.

2. Başqa auditorun fəaliyyətinə müdaxilə formasında.

3. Qanunsuz auditor fəaliyyəti formasında.

4. Peşəkar Mühasiblərin Etika Məcəlləsinin tələblərinin pozulması formasında.

5. Auditor xidməti istifadəçilərinin çaşdırılması formasında.

6. Auditor fəaliyyətində qanunsuz ödənişlərə yol verilməsi formasında.

7. Auditor fəaliyyətində dempinqə yol verilməsi (o cümlədən göstərilən auditor xidmətlərinin dəyərinin tövsiyə olunan minimum hədlərinə riayət olunmaması)*.

Auditor xidməti sahəsində haqsız rəqabət və maraqlar toqquşmasına yol verilməsi formalarının digər 1-6-cı bəndləri üzrə də yetərli araşdırma və təhlil faktları mövcuddur.

---

* Azərbaycan Respublikasının Auditorlar Palatası sədrinin “Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin tövsiyə olunan minimum hədləri barədə” Auditorlar Palatası Şurasının 2005-ci il 23 dekabr tarixli 159/5 saylı (2009-cu il 26 yanvar tarixli 197/6 saylı qərarı ilə edilmiş əlavə və dəyişikliklərlə) qərarının icra vəziyyətinin araşdırılması barədə 2012-ci il 14 iyun tarixli 1/13 saylı sərəncamı ilə yaradılmış Komissiya tərəfindən həmin qərarın icra vəziyyəti 2011-ci il üzrə araşdırılmışdır.

Araşdırma 2011-ci il ərzində 56 auditor təşkilatının (o cümlədən 5 xarici auditor təşkilatının filialı (və ya nümayəndəliyi) və 3 xarici investisiyalı auditor təşkilatı) və 42 sərbəst auditorun Auditorlar Palatasına təqdim etdikləri illik hesabatlar əsasında aparılmışdır.

Araşdırma nəticəsində müəyyən edilmişdir ki, auditor təşkilatları tərəfindən xidmət göstərilməsinə dair bağlanmış müqavilələrin 34,6%-i, sərbəst auditorlar tərəfindən 37,1%-i, ümumilikdə isə bağlanmış müqavilələrin 35,5%-i tövsiyə olunan minimum hədlərdən aşağı olmuşdur.

# IV. AUDİTOR XİDMƏTİNİN İNKİŞAF KONSEPSİYASININ ƏSAS İSTİQAMƏTLƏRİ




Azərbaycanda auditor xidmətinin inkişaf konsepsiyası hazırlanarkən əsas hüquqi və metodoloji baza kimi aşağıdakılar götürülmüşdür:

- Azərbaycan Respublikası Prezidentinin auditin inkişafına dair tövsiyələri;
- “Azərbaycan 2020: gələcəyə baxış” inkişaf konsepsiyasının müddəaları;
- Dövlət proqramlarında nəzərdə tutulmuş vəzifələr;
- Ölkədə həyata keçirilən iqtisadi islahatların tələbləri;
- Beynəlxalq audit və hesabatlılıq təcrübəsi;
- Auditorlar Palatasının üzv olduğu beynəlxalq qurumlar qarşısında olan öhdəlikləri;

- Dünya Bankı. Mühasibat və audit sahəsində standart və normalara əməl olunması üzrə hesabat (ROSC). Azərbaycan, sentyabr 2006-cı il;
- Dünya Bankı. Standart və Normalara Əməl olunma Hesabatı (ROSC). Korporativ idarəetmə üzrə ölkə qiymətləndirməsi. Azərbaycan, sentyabr 2009-cu il;
- Dünya Bankı. Azərbaycan: korporativ və dövlət sektorunda hesabatlılıq layihəsi (CAPSAP). 2008-2011-ci illər.

**Azərbaycanda auditor xidmətinin inkişaf konsepsiyasının hüquqi və metodoloji əsasları:**

***4.1. Auditor xidmətinin normativ hüquqi bazasının təkmilləşdirilməsi***

Auditor xidmətinin normativ hüquqi bazasının təkmilləşdirilməsi bir sıra yeni qanunların qəbulunu, eləcə də qüvvədə olan qanunvericilik aktlarına müvafiq əlavə və dəyişikliklərin edilməsini zəruri edir.

Auditin hüquqi bazasının təkmilləşdirilməsi üçün ilk növbədə, "Maliyyə nəzarəti haqqında" qanun qəbul olunmalıdır. Maliyyə nəzarətinin müxtəlif qolları arasında əlaqələrin daha da gücləndirilməsi, bu qurumlar arasında səlahiyyət dairəsinin konkretləşdirilməsi zərurətini nəzərə alaraq və müxtəlif qurumların maliyyə nəzarəti sahəsində məqsədlərinin yaxınlığını əsas götürərək, ölkədə maliyyə nəzarəti sahəsində sistemliyi, kompleksliyi və nəzarətin özünün səmərəliliyinin təmin edilməsini reallaşdıra biləcək bu qanunda dövlət, müstəqil və daxili nəzarət sahəsində dövlət siyasətinin ümumi aspektləri, onların qarşılıqlı əlaqəsi, fəaliyyətlərinin çərçivəsi əks olunmalı, iqtisadi səmərəlilik, biri digərini təkrarlamamaq, sahibkarlıq fəaliyyətinə lüzumsuz müdaxilələrin qarşısının alınması kimi mühüm məsələlər qanunda öz həllini tapmalıdır.

Bu məqsədlə «Maliyyə nəzarəti haqqında» Azərbaycan Respublikasının Qanununda auditin inkişafına istiqamətlənmiş aşağıda göstərilən müddəalar əks olunmalıdır:

1. «Audit» başlıqlı ayrıca bir fəslin yer alması, həmin fəsildə kənar audit (dövlət auditi və müstəqil audit), daxili audit haqqında maddələrin verilməsi;
2. Qanunda müstəqil auditor, müstəqil auditorun hesabatı, beynəlxalq audit standartları və s. kimi ifadələrin təsbit olunması;
3. Maliyyə nəzarəti orqanlarının vəzifə və funksiyalarının, habelə hüquq və səlahiyyətlərinin konkret olaraq təsbit edilməsi;
4. Auditin beynəlxalq audit standartlarına və Peşəkar Mühasiblərin Etika Məcəlləsinə əsasən aparılması tələbi;
5. Müstəqil (kənar) auditorun hesabatının tanınmasının təmin edilməsi və b.

Azərbaycan Respublikasının dünya iqtisadiyyatına inteqrasiyası, Auditorlar Palatasının Beynəlxalq Mühasiblər Federasiyasına (IFAC) tamhüquqlu üzvlüyə qəbulu və bu üzvlükdən yaranan öhdəliklər, habelə Azərbaycan Respublikasının ayrı-ayrı qanunvericilik aktlarına auditlə bağlı edilmiş əlavə və dəyişikliklər auditor fəaliyyətini tənzimləyən yeni qanunun qəbulunu aktuallaşdırmışdır.

Auditor xidmətinə dair hüquqi-normativ baza təkmilləşdirilərkən aşağıdakı istiqamətlərə xüsusi önəm verilməlidir:

- "Auditor fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunu layihəsinin hazırlanması və qəbul edilməsi;
- auditorlar tərəfindən peşəkar etik davranış qaydalarına əməl edilməsi;
- Auditorlar Palatasının fəaliyyəti barədə ictimaiyyətin məlumatlandırılmasına dair müddəanın təsbit edilməsi;

- kiçik və orta müəssisələr üçün audit standartlarının tətbiqi;

- BAS-ların tətbiqi;

- auditorların müstəqilliyinə təhlükə yaradan halların aradan qaldırılması;

- keyfiyyətə nəzarətə dair beynəlxalq təcrübənin və tələblərin əksini tapması;

- auditor adı almaq üçün tələblərin beynəlxalq qaydalara uyğunlaşdırılması;

- auditorların hesabatlarına görə məsuliyyətlərinin artırılması;

- korporativ idarəetmə sistemi və audit arasında əlaqələrin zəruriliyi;

- məcburi audit subyektlərinin qanunda təsbit olunması;

- auditor təşkilatlarının yaradılmasında və fəaliyyətində lisenziyalı auditorların iştirakının zəruriliyi;

- auditor təşkilatlarının rəhbərinin lisenziyalı auditor olması;

- auditor fəaliyyətinin dayandırılması və ona xitam verilməsi;

- maliyyə sferasında nöqsan və çatışmazlıqların aşkar edilməsi və qarşısının alınması;

- audit prosesində şəffaflığın təmin olunması;

- auditorların çirkli pulların yuyulması və korrupsiyaya qarşı mübarizə aparan orqanlarla əməkdaşlığı;

- auditin keyfiyyətinə ictimai nəzarətin təmin edilməsi;

- auditorların seçilməsində şəffaflığın təmin edilməsi;

- auditin statusunun genişləndirilməsi;

- auditin tənzimlənməsinin təkmilləşdirilməsi və Auditorlar Palatasının statusunun beynəlxalq təcrübə əsasında yenilənməsi;

- ədalətli rəqabətin təmin edilməsi və inhisarçılığa yol verilməməsi.

- fəaliyyətin əsas meyar göstəriciləri olan illik dövriyyənin həcmi, işçilərin sayı ilə bağlı auditin əhatə dairəsinin dəqiqləşdirilməsi üzrə hüquqi mexanizmin müəyyən edilməsi;

- məcburi auditin obyektləri tərəfindən maliyyə hesabatlarının müstəqil auditor hesabatı (rəyi) ilə birlikdə dərc etdirilməsi ilə əlaqədar məsuliyyətin qanunvericilikdə təsbit olunması;

- auditorların tənzimləyici və digər səlahiyyətli dövlət orqanları ilə münasibətlərinin qanunvericilikdə əks olunması;

- müstəqil auditorun hesabatının təsərrüfat subyektinin maliyyə hesabatlarının tərkib hissəsi kimi tanınması;

- Auditorlar Palatasının əsas vəzifələrindən biri kimi ictimai marağın qorunmasının təsbit edilməsi;

- auditor xidməti sahəsində qadağaların beynəlxalq təcrübəyə uyğunlaşdırılması;

- BMF-in Beynəlxalq Təhsil Standartlarında müəyyən edilmiş qaydada auditorların və auditor şirkətlərinin sertifikatlaşdırılması;

- sertifikatlaşdırılmış auditorların və auditor şirkətlərinin reyestrinin aparılması;

- araşdırma və sanksiyaların səmərəli və şəffaf sisteminin tətbiqi;

- Auditorların Palatasının strukturunun (Şura və komitələr), Şura üzvlərinin tərkibi, seçilmə və ya təyin olunma qaydasının (səlahiyyət müddətinin məhdudlaşdırılması, eyni şəxsin bir neçə vəzifəyə təyin olunması, boş yerlərin tutulması və s. daxil olmaqla) qanunvericiliklə müəyyən edilməsi;

- auditorların və auditor təşkilatlarının akkreditasiyası və qeydiyyatının beynəlxalq təcrübəyə uyğunlaşdırılması.

### *4.2. Auditor xidmətinin təşkilinin təkmilləşdirilməsi*

Azərbaycanda auditor xidmətinin təşkilinin təkmilləşdirilməsi aşağıda göstərilən istiqamətlərdə özünü ehtiva etməlidir:

1. Ölkə iqtisadiyyatının öncül istiqamətləri, o cümlədən neft-yanacaq kompleksi, turizm, informasiya texnologiyaları, kənd təsərrüfatı, tikinti, nəqliyyat və digər vacib sahələr üzrə auditin xarici təcrübə nəzərə alınmaqla aparılması.

2. Könüllü və əlaqədar xidmətlərin genişləndirilməsi üzrə tədbirlər sisteminin reallaşdırılması.

3. Auditin təşkilinin ölkədə reallaşdırılan regional inkişaf proqramları ilə uzlaşdırılması.

4. Kiçik və orta müəssisələrin xüsusiyyətləri nəzərə alınmaqla auditin təşkilinin təkmilləşdirilməsi.

5. Auditin aparılmasında yüksək texnologiyalardan istifadə və elektron auditin tətbiqi.

6. Təsərrüfat subyektləri ilə auditorlar arasında interaktiv əlaqələrin təşkili.

7. Məcburi audit subyektlərinin illik maliyyə hesabatlarının auditor rəyi ilə birlikdə internet səhifəsində yerləşdirilməsi.

8. Səmərəlilik, uyğunluq və digər auditlərin tətbiqinin genişləndirilməsi.

9. Ədalətli rəqabətin təmin olunması üzrə təşkilati tədbirlərin həyata keçirilməsi.

10. Xarici təcrübə nəzərə alınmaqla auditorların reytinq səviyyəsinin müəyyən edilməsi.

11. Auditorların hesabatlılığının təkmilləşdirilməsi.

12. Audit göstəriciləri sisteminin işlənib hazırlanması və tətbiqi.

13. Audit subyektlərinin seçmə üsulla yoxlanması sisteminin təşkili.

14. Etik prinsiplərin tətbiqinin reallaşdırılması sisteminin hazırlanması.

15. Nəzarət və araşdırmalar sisteminin təşkili.

16. Xarici ölkələrdə auditin təşkili təcrübəsinin öyrənilməsi və tətbiqi.

17.Auditdə qiymətlərin tənzimlənməsi sisteminin təkmilləşdirilməsi.

18. Sahələr və regionlar üzrə məcburi auditdən keçməyə dair analitik-informasiya sisteminin yaradılması.

19. Auditə dair metodoloji və tövsiyə xarakterli materialların hazırlanması.

20. Auditor xidməti istifadəçilərinin, maraqlı tərəflərin və bütövlükdə ictimaiyyətin auditin təşviqi və təbliği sahəsində maariflləndirilməsi.

### *4.3. Auditor xidmətinin tənzimlənməsinin və idarə edilməsinin təkmilləşdirilməsi*

Azərbaycanda auditor xidmətinin tənzimlənməsinin və idarə edilməsinin təkmilləşdirilməsi hələ 2005-2006-cı illərdə Dünya Bankının dəstəyi ilə «CGA-Canada» təşkilatı tərəfindən icra olunmuş «Auditorlar Palatasinin funksiyalarını peşəkar standartlara uyğunlaşdırmaq və sabitləşdirmək məqsədilə onun imkanlarının genişləndirilməsi. IDF Grant No. TF 53583-AZ» qrant layihəsinin əsas məqsədlərindən biri olmuşdur. Layihə çərçivəsində İnstitusional islahat, nəzarət funksiyasının inkişaf etdirilməsi, Auditorlar Palatası daxilində tələb olunan qanuni prosesin, idarəetmənin və şəffaflığın gücləndirilməsi, auditin keyfiyyətinə nəzarət sisteminin və nizam-intizam prosesinin həyata keçirilməsi və digər istiqamətlərdə təhlillər aparılmış və müvafiq tövsiyələr verilmişdir. Ötən müddət ərzində bu tövsiyələrin bəziləri (xüsusilə audit qanunvericiliyinin təkmilləşdirilməsi və BAS-ların tətbiqi sahəsində) artıq həyata keçirilmiş, bir hissəsi isə hələ də aktuallığını tam və ya qismən saxlamışdır. Belə tövsiyələrdən biri də Auditorlar Palatasının institusional potensiyalının gücləndirliməsi və idarə edilməsinin təkmilləşdirilməsidir.

Dünya Bankının «Azərbaycan: korporativ və dövlət sektorunda hesabatlılıq layihəsi»

(2009) adlı digər bir layihəsində auditin tənzimlənməsi və idarə edilməsi istiqamətində aşağıdakı tədbirlərin görülməsi tövsiyə olunmuşdur:

- auditin institusional potensialının gücləndirilməsi;
- auditin idarə edilməsi sahəsində beynəlxalq təcrübənin tətbiqinin genişləndirilməsi;
- Auditorlar Palatasının statusunun gücləndirilməsi, onun strukturunun və vəzifələrinin dəqiqləşdirilməsi;
- auditorların fəaliyyətinə kənar nəzarətin təyin edilməsi üçün müvafiq hüquqi və institusional tədbirlərin həyata keçirilməsi.

Bu layihədə Auditorlar Palatasının islahatının və gücləndirilməsinin əsasən aşağıdakı sahələrdə aparılması tövsiyə olunmuşdur:

- qanunvericilik bazası, etika məcəlləsi;
- monitorinq və icranın təmin olunması;
- sertifikatlaşdırma və lisenziyalaşdırma, davamlı peşəkar inkişaf;
- audit standartları.

Yuxarıda göstərilənlərlə yanaşı, auditor xidmətinin idarə edilməsinin təkmilləşdirilməsi aşağıdakıları özündə ehtiva etməlidir:

**a) Auditorlarla əlaqələrin yüksək texnologiyaların tətbiqindən istifadə olunmaqla genişləndirilməsi və onların idarəetməyə daha aktiv cəlb edilməsi (o cümlədən komitələr və işçi qruplar çərçivəsində)**

Belə əlaqələrin aşağıdakı istiqamətlərdə qurulması məqsədəuyğundur:

1. Auditorların hesabatlarının interaktiv qəbulu və emalı.
2. E- kargüzarlıq sisteminin tətbiqi.
3. Müxtəlif toplantıların, o cümlədən komitə və işçi qrupların iclaslarının onlayn aparılması.
4. Videokonfrans və videoseminarların təşkili.
5. E-imza tətbiq olunmaqla sənəd dövriyyəsinin təşkili.

**b) Qərar qəbuletmə proseslərinin təkmilləşdirilməsi**

Şura qərarlarının, əmrlərin və sərəncamların tətbiq sahəsi dəqiqləşməli, hansı göstərişlərin əmrlə və ya sərəncamla rəsmiləşdirilməsi müəyyənləşdirilməli, hətta bir sıra məsələlərin üzvlərin səsverməsi keçirilməklə daha demokratik həlli tətbiq olunmalıdır. Digər vacib aspekt isə qərarların icrasına operativ nəzarətin təşkilidir.

**c) Palatada kargüzarlığın, daxili nəzarətin və hesabatlılığın (o cümlədən auditorların hesabatlılığının) təkmilləşdirilməsi**

Bura həm palatadaxili sənəd dövriyyəsinin dürüstlüyü, ünvanlanan şəxslərə çatdırılma operativliyi, sənədlərin qeydiyyat proseslərinin, daxili nəzarət prosedurlarının aparılması və rəsmiləşdirilməsinin, habelə hər cür hesabat formalarının tərtibi və təsdiqi proseslərinin təkmilləşdirilməsi daxildir.

**ç) Maarifləndirmə, auditin təbliği və nəşrlər sahəsində fəaliyyətin intensivləşdirilməsi**

İctimaiyyətdə auditə dair düzgün və obyektiv təsəvvürün formalaşdırılması üçün belə tədbirlərin intensivləşdirilməsi prioritet istiqamətdir.

**d) Metodiki vəsaitlərlə təminat (o cümlədən beynəlxalq peşəkar qurumların normativ sənədləri ilə)**

Metodiki vəsaitlərin təkcə auditorlar tərəfindən deyil, həm də çoxsaylı auditor xidməti istifadəçiləri tərəfindən öyrənilməsi və istifadəsi nəzərə alınmalı, bu sahədə fəaliyyət daha da genişləndirilməlidir.

**e) «Elektron hökumət» proqramı çərçivəsində məlumat bazalarının yaradılması, ölkə üzrə ümumi məlumat şəbəkəsinə qoşulma**

Auditorlar Palatası hazırda lokal və standart proqramlar vasitəsilə məlumat bazası yaratmış və istifadə edir. Daha müasir proqram təminatı vasitəsilə auditin məlumat bazası yaradılmalı və onun ölkə üzrə ümumi məlumat şəbəkəsinə qoşulması təmin edilməlidir.

**ə) Təhlillər, iqtisadi tədqiqatlar və araşdırmalar aparılması istiqamətində fəaliyyət**

Palata tərəfindən xidmət bazarının öyrənilməsi və proqnozlaşdırılması istiqamətində fəaliyyət intensivləşdirilməlidir.

**f) Beynəlxalq peşəkar təşkilatlarda üzvlük, onlarla əlaqələr, habelə xarici ölkələrin peşəkar qurumları ilə səmərəli əməkdaşlıq istiqamətində fəaliyyət**

Bu istiqamətdə əsas diqqət əlaqələrin nəticəliliyinə yönəldilməli, xarici tərəfdaşların təcrübə və potensiallarından maksimum istifadə olunmalıdır.

**g) Şəffaflığın artırılması, korrupsiyaya qarşı, cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahələrində beynəlxalq və yerli təşkilatların işində iştirak istiqamətində fəaliyyət**

**ğ) Maliyyə təminatının gücləndirilməsi**

Palatanın maliyyə imkanlarının məhdudluğu müxtəlif vaxtlarda ayrı-ayrı qurumlar (Dünya Bankı, CGA Canada və s.) tərəfindən vurğulanmışdır. Hazırda Palatanın büdcəsinin (2011-ci il) 88%-i üzvlük haqqından, 12%-i peşə tədris kurslarının təşkilindən, imtahan haqlarından və nəşrlərin satışından formalaşır. Perspektivdə maliyyə təminatının gücləndirilməsi aşağıdakı yollarla mümkün ola bilər:

1. Yeni üzvlərin cəlb edilməsi.

2. Peşə kurslarının intensivliyinin və çeşidinin artırılması.

3. Ödənişli tədbirlərrin (simpozium, konsaltinq xidmətlərinin göstərilməsi və s.) təşkili.

4. Mənfəətli törəmə müəssisələrin yaradılması.

5. Nəşrlərin və e-məhsulların satışının artırılması.

6. Donor yardımları.

Auditin idarə edilməsinin təkmilləşdirilməsi zamanı:

Auditorlar Palatası keyfiyyətin təmin edilməsində daha fəal rol oynamalı və audit standartlarına əməl olunmasının yoxlanılması sahəsində səylərini artırmalıdır.

Auditorlar Palatası yüksək keyfiyyətli auditor xidməti göstərilməsinin təmin edilməsi istiqamətində fəaliyyətini gücləndirməlidir.

Auditorların müstəqilliyi ilə bağlı tələblər gücləndirilməlidir.

Mülki Məcəllədən çıxarılmış auditlə bağlı müddəa bərpa edilməlidir.

Auditorlar tərəfindən göstərilmiş xidmətlərin haqqı səhmdarların ümumi yığıncağında və illik hesabatda açıqlanmalıdır.

Auditor firması tərəfindən auditlə bağlı olmayan işlərin görülməsinə məhdudiyyətlər qoyulmalıdır.

### *4.4. Auditor kadrlarının hazırlanması*

Azərbaycanda auditin inkişafını şərtləndirən əsas amillərdən biri yüksək səviyyəli auditor kadrlarının hazırlanması və onların peşə-ixtisas səviyyəsinin artırılmasıdır.

Auditorlar Palatası tərəfindən təşkil edilməli ixtisasartırma kursları daimi, icbari və davamlı xarakter daşımaqla, nəzəri və praktik istiqamət daşımalıdır.

Nəzəri istiqamətdə təşkil olunan kurslar ölkədə audit, maliyyə-mühasibat, iqtisadi qanunvericilik sahəsində baş vermiş dəyişiklikləri, audit və mühasibat uçotu üzrə beynəlxalq və milli standartları, normativ sənədləri, yeni informasiya texnologiyalarından və proqram-

lardan istifadə olunmasını və digər məsələləri əhatə etməlidir.

Praktik ixtisasartırma kursları isə yeni, qabaqcıl iş təcrübəsinin öyrənilməsi, beynəlxalq audit praktikasının mütərəqqi üsullarından istifadə olunması istiqamətlərini əks etdirməlidir.

Auditorların hazırlanması və onların ixtisas səviyyəsinin yüksəldilməsi bir sıra təxirəsalınmaz məsələlərin həllini zəruriləşdirir. İlk növbədə, mövcud olan "Auditor adı almaq üçün imtahanların keçirilməsi qaydaları" və "Auditorların ixtisasartırılması qaydaları" IFAC-ın Beynəlxalq Təhsil Standartlarının tələbləri nəzərə alınaraq təkmilləşdirilməlidir.

Beynəlxalq Mühasiblər Federasiyası (IFAC) tərəfindən sərbəst auditor və mühasib adları almaq üçün keçiriləcək imtahanlara dair tövsiyələrə uyğun olaraq Azərbaycanda auditor adı almaq üçün imtahanların bir neçə pilləli sisteminin tətbiqi zəruridir.

Xarici təcrübə nəzərə alınmaqla, belə imtahanları ayrı-ayrılıqda, xüsusilə müvafiq sahələr üzrə (audit, mühasibat uçotu, maliyyə, hesabat vermə, idarəetmə uçotu, vergi, bank və sığorta qanunvericiliyi, mülki qanunvericilik və informasiya texnologiyaları) keçirmək daha məqsədəuyğundur.

Auditorlar Palatası öz üzvlərinin ixtisasartırma səviyyəsinin yüksəldilməsinin təşkilinin IFAC-ın Beynəlxalq Təhsil Standartlarının tələblərinə uyğun həyata keçirilməsinə nail olmalıdır.

Auditorlar Palatası Beynəlxalq Mühasiblər Federasiyasının tamhüquqlu üzvü kimi, peşəkar mühasiblər üçün Beynəlxalq Təhsil Standartları ilə bağlı bütün məlumatlarla üzvlərini məlumatlandırmalı, eləcə də peşəkar mühasiblər üçün təhsil və beynəlxalq təhsil bülleteni təcrübəsindəki müddəaları, mühasibat uçotu və hesabatlılıqda Beynəlxalq Mühasiblər Federasiyası Komitəsi tərəfindən Beynəlxalq Təhsil Standartlarına (BTS) cavab verən mühasibat uçotu və hesabatlılıqla bağlı məlumat verilməsini təmin etməlidir.

**Auditorların ixtisasartırma kurslarının təşkili.** Auditorların ixtisasartırma kurslarının təşkil edilməsi BTS-nin tələblərinə əsaslanaraq Auditorlar Palatası tərəfindən hazırlanmış perspektiv plana əsasən aparılmalıdır. Perspektiv planın layihəsi auditorların ixtisasartırma kurslarının təşkil edilməsi komitəsi (bundan sonra - komitə) tərəfindən işlənib hazırlanmalıdır.

İxtisasartırma kursları auditorların təhsil, tədris və ixtisasartırma proqramına (bundan sonra - tədris proqramı) əsasən həyata keçirilməlidir. Bu tədris proqramlarına Beynəlxalq Təhsil Standartları tərəfindən təsbit edilmiş peşəkar mühasiblərin təhsil və ixtisasartırma səviyyəsinin yüksəldilməsi komponentlərini daxil etmək tövsiyə olunmalıdır. Tədris proqramları hər il Auditorlar Palatası Şurasının qərarı ilə müvafiq qaydada dəyişdirilə, bura hər hansı əlavə və dəyişikliklər oluna bilər. Tədris proqramlarının layihələri müvafiq komitə tərəfindən işlənib hazırlanmalıdır.

Bu kurslar auditorların mühasibat uçotu sahəsində nəzəri və təcrübi biliklərinin yüksəldilməsini, beynəlxalq audit standartlarını və maliyyə hesabatlılığını, həmçinin Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, vergilər, mülki, bank, sığorta və pensiya (təqaüd) məsələlərinin öyrənilməsini özündə cəmləşdirməlidir.

İxtisasartırma kursları Auditorlar Palatası tərəfindən tematik mühazirələr, seminarlar, treninqlər, eyni zamanda, peşəkarlar tərəfindən "dəyirmi masa"lar, elmi-praktik konfranslar və s. kimi formalarda aparıla bilər

**İxtisasartırma kurslarının nizamlan-**

**ması.** İxtisasartırma kursları aşağıdakı tələblərə cavab verən müəllimlər tərəfindən həyata keçirilməlidir:

- öz sahəsi üzrə ən azı 5 il, tədris sahəsi üzrə ən azı 2 il müddətinə təcrübəyə malik olmalı;
- CAP, CIPA, DipIFR, CPA, ACCA kimi sertifikatlara sahib olmalı.

***4.5. Auditor xidmətinin keyfiyyətinin yüksəldilməsi və nəzarətin təkmilləşdirilməsi***

İnkişaf etməkdə olan hər bir ölkədə auditor xidmətinin keyfiyyətinin yüksəldilməsi, eləcə də bu fəaliyyətə nəzarətin təkmilləşdirilməsi daim diqqət mərkəzində dayanır. Bunu zəruri edən isə auditor fəaliyyətində keyfiyyət məsələsinin hələ də konseptual bir problem olaraq qalmasıdır.

Auditorların müvafiq audit və etika standartlarına və müstəqillik tələblərinə əməl edilməsinin səmərəli surətdə monitorinqini aparmağa qabiliyyəti olan hərtərəfli keyfiyyətə nəzarət sisteminin işlənib hazırlanması və həyata keçirilməsi, nəzarətin müstəqilliyi və effektivliyinin təmin edilməsi öz həllini gözləyir.

Bu baxımdan, auditin keyfiyyətinə nəzarət işinin gücləndirilməsi, keyfiyyətə nəzarətdə daxili nəzarətlə kənar nəzarətin biri-birini tamamlamasına nail olunması mühüm əhəmiyyət kəsb edir.

Məlum olduğu kimi 2010-cu ildən etibarən Azərbaycan Respublikasında beynəlxalq audit standartlarının tətbiqinə keçilimişdir. Bu keçid auditor fəaliyyətinə nəzarət işinin yeni əsaslar üzərində qurulmasını zəruri etmişdir. Bu mənada, ilk növbədə tələb olunur ki, Azərbaycan Respublikasında auditor təşkilatları və sərbəst auditorlar keçirdikləri yoxlamalarda daxili və xarici keyfiyyətə nəzarət qaydalarını müəyyənləşdirib onlara riayət etsinlər. Bu qaydalar beynəlxalq audit standartları və 1 saylı Beynəlxalq Keyfiyyətə Nəzarət Standartı ilə tənzimlənir.

Auditor xidmətinin keyfiyyətinin yüksəldilməsi və onun keyfiyyətinə nəzarət aşağıdakı konseptual əsaslarla həyata keçirilməlidir:

- Auditin keyfiyyətinə daxili nəzarət aşağıdakı tələblər əsasında qurulmalıdır:

1) Auditor təşkilatlarının işçilərinin müstəqillik, düzgünlük, obyektivlik, məxfilik və peşəkar davranış qaydalarına danışıqsız riayət etməsi;

2) Əməkdaşların lazımi bacarıqlara malik olması və bu bacarıqlardan yoxlamalar zamanı istifadə edilməsi, həmçinin öz öhdəliklərini lazımi qaydada yerinə yetirməsi üçün yetərli səlahiyyətə malik olmaları;

3) Auditor yoxlamalarının müəyyən şəraitdə iş təcrübəsi olan və xüsusi hazırlıq keçmiş peşəkarlara və mütəxəssislərə həvalə olunması;

4) Mütəxəssis və işçilərin fəaliyyətinin yönəldilməsi, iş fəaliyyətinin müvafiq keyfiyyətinin təmin edilməsi üçün bütün səviyyələrdə cari nəzarətin həyata keçirilməsi;

5) Zəruri hallarda, müvafiq biliklərə malik olan kənar ekspert və mütəxəssislərdən məsləhətlərin alınması;

6) Daim potensial və mövcud müştərilərlə monitorinq işlərinin görülməsi. Müqavilənin imzalanması və ya əməkdaşlığın davam etdirilməsi haqqında qərar verərkən, auditorun müstəqillik mülahizələrinə, özlərinin lazımi səviyyədə xidmət göstərmək bacarıqlarına və yoxlanılan müəssisənin rəhbərliyinin dürüst olmasına əsaslanması;

7) Auditin keyfiyyətinə daxili nəzarət prosedurlarının və prinsiplərinin effektivliyinə və adekvatlığına müntəzəm baxılması.

Auditin keyfiyyətinə kənar nəzarət sistemi aşağıdakıları müəyyənləşdirməlidir:

1) Auditorlar aşağıdakıları bacarmalıdırlar:

- ədalətli rəqabət şəraitində işləməyi;

- peşəkar fəaliyyətini cəmiyyətin maraqlarına uyğun həyata keçirtməyi;

2) Həvalə olunmuş tapşırıqlara əsaslanaraq, bütün auditorlar auditə birtipli yanaşmanı təmin etməlidirlər:

- tələb olunan keyfiyyəti və obyektivliyi təmin etmək və peşəkar etik normalara riayət etmək məqsədilə auditor tərəfindən istifadə olunan prosedurları qiymətləndirmək;
- standartların düzgün tətbiqini və iş sənədlərində göstərilən məlumat və fikirlərin rəyə uyğunluğunu yoxlamaq;
- təsərrüfat subyektinin Audit komitəsi, daxili audit qurumu və korporativ idarəetmə sistemi ilə kollegial qarşılıqlı əlaqəni təmin etmək.

Auditin keyfiyyətinə kənar nəzarətin məqsədinə nail olmaq üçün aşağıda göstərilənlərin monitorinqi aparılmalıdır:

- müstəqillik və peşəkar davranış baxımından auditorun fəaliyyətinin peşəkar etik qaydalara uyğunluğu;
- audit işinin xüsusiyyəti və təşkili;
- auditorun hesabatları və xüsusi öhdəlikləri;
- müvafiq texniki nəzarət vasitələrinin tətbiqi.

Keyfiyyətə nəzarətin təkmilləşdirilməsi konsepsiyası aşağıdakı iki aspekti özündə ehtiva etməlidir:

- birinicisi, bütün auditorları və audit nəzarətini əhatə edən "Üfüqi nəzarət";
- ikincisi, ictimai əhəmiyyətli qurumların auditor yoxlamalarına daha dərin nəzarət.

Auditor xidmətinin keyfiyyətinin xarici nəzarətinə olan tələblərin Auditorlar Palatasının üzv olduğu və əməkdaşlıq etdiyi beynəlxalq qurumların qəbul etdiyi sənədlərə uyğunlaşdırılması zəruridir:

a) Avropa Şurasının direktivlərinə;

b) Beynəlxalq Mühasiblər Federasiyasının (IFAC) keyfiyyətə nəzarət standartlarına;

c) 1 saylı Beynəlxalq Keyfiyyətə Nəzarət Standartı (BKNS) - "Keçmiş dövrlər üzrə auditor yoxlamasını həyata keçirən və maliyyə hesabatlarını nəzərdən keçirən, həmçinin məlumatın etibarlılığını və digər bununla əlaqəli xidmətlər göstərən təşkilatların iş keyfiyyətinə nəzarət": KDNS (keyfiyyətə daxili nəzarət sistemi) strukturuna məcburi tələblər və siyasətini və prosedurlarını sənədləşdirmək tələblərinə, o cümlədən KDNS-nin elementlərinə;

d) 220 saylı "Tarixi maliyyə məlumatlarının auditinin keyfiyyətinə nəzarət" beynəlxalq audit standartına;

e) Peşəkar Mühasiblərin Etika Məcəlləsinə;

f) Üzvlük Öhdəlikləri Bəyannaməsinə - ÜÖB 1 (Statemenent of Membership Oblogation - SMO) "Keyfiyyətli əminlik" (BMF-yə daxil olan peşəkar birliklərin öhdəlikləri).

***4.6. Beynəlxalq audit təcrübəsinin tətbiqi***

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi, «Azərbaycan Respublikasının iqtisadiyyatı inkişaf etdikcə və onun dünya təsərrüfat sisteminə inteqrasiyası gücləndikcə iqtisadi-maliyyə münasibətlərində şəffaflığın təmin olunmasında, iqtisadi cinayətkarlığa və korrupsiyaya qarşı mübarizədə auditin imkanlarından istifadə etmək zərurəti yaranır. Bunun üçün müstəqil maliyyə nəzarəti sahəsində mütərəqqi dünya təcrübəsini öyrənmək və milli iqtisadiyyatın xüsusiyyətlərini nəzərə almaqla ölkəmizdə tətbiqini genişləndirmək çox vacibdir», çünki «audit sisteminin beynəlxalq təcrübə və standartlar əsasında təkmilləşdirilməsi ölkə iqtisadiyyatında maliyyə şəffaflığını, büdcə vəsaitlərindən təyinatına uyğun istifadəni təmin etməklə, Azərbaycanın iqtisadi qüdrə-

tinin möhkəmləndirilməsinə xidmət edir».

Bunu nəzərə alaraq, Auditorlar Palatası özünün beynəlxalq əlaqələrin qurulması üzrə fəaliyyətinə - beynəlxalq və regional peşə qurumlarında təmsilçiliyə, ikitərəfli əməkdaşlıq əlaqələrinin qurulmasına və inkişaf etdirilməsinə də məhz mütərəqqi xarici audit təcrübəsinin öyrənilməsi, milli kadrlara çatdırılması və yerli xüsusiyyətlər nəzərə alınmaqla, ölkədə tətbiq edilməsi baxımından yanaşır. Hazırda Palatanın nüfuzlu peşə qurumlarında – Beynəlxalq Mühasiblər Federasiyasında (IFAC), Mühasiblərin və Auditorların "Avrasiya" Beynəlxalq Regional Federasiyasında, Avropa Mühasiblər və Auditorlar Federasiyasında tamhüquqlu üzv, Sertifikatlı Mühasiblərin və Auditorların Avrasiya Şurasında isə assosiativ üzv sifətilə təmsilçiliyi, habelə Rusiya Federasiyası Auditorlar Kollegiyası və Rusiya Auditorlar Palatası, Türkiyə Sərbəst Mühasibəçi Mali Müşavirlər və Yeminli Mali Müşavirlər Odaları Birliyi və Türkiyə Daxili Auditorlar İnstitutu, Ukrayna Peşəkar Mühasiblər və Auditorlar Federasiyası və Ukrayna Auditorlar Birliyi, Qazaxıstan, Özbəkistan, Litva, Latviya, Çin, Böyük Britaniya, Fransa, Kanada, Rumıniya, Macarıstan, Polşa, Slovakiya, Makedoniya, Belarus, Moldova və digər ölkələrin audit qurumları ilə əməkdaşlıq barədə saziş və niyyət protokollarının imzalanması, intensiv işgüzar əlaqələrin qurulması həm də Azərbaycan auditorlarının peşə-ixtisas səviyyəsinin müntəzəm olaraq təkmilləşdirilməsi məqsədlərinə xidmət edir.

Xarici ölkələrin audit təcrübəsinin öyrənilməsi Azərbaycanda auditor xidmətinin inkişafına və keyfiyyətinin yüksəldilməsinə, eləcə də auditor xidmətinin qanunvericilik bazasının daha da təkmilləşdirilməsinə ciddi kömək edir.

Beynəlxalq audit təcrübəsinin daha səmərəli öyrənilməsi məqsədilə 2014-2020-ci illərdə aşağıdakı ölkələrin audit qurumları ilə də əlaqələrin yaradılması və birgə tədbirlərin həyata keçirilməsi üçün əməkdaşlıq sazişlərinin bağlanması məqsədəmüvafiqdir:

- Albaniya
- Almaniya
- Avstriya
- Bolqarıstan
- Bosniya və Herseqovina
- Çin
- Ərəb ölkələri
- Gürcüstan
- Hindistan
- Xorvatiya
- İran
- İsrail
- İtaliya
- Qırğızıstan
- Malayziya
- Pakistan
- Serbiya
- Sloveniya
- Tailand
- Yaponiya
- Yunanıstan

Beynəlxalq audit təcrübəsinin tətbiqi məqsədilə əməkdaşlıq haqqında niyyət protokollarında, sazişlərdə və anlaşma memorandumlarında aşağıdakı tədbirlərin nəzərdə tutulması zəruridir:

- BAS-ların tətbiqi;
- audit siyasətinin təkmilləşdirilməsi;
- auditin normativ hüquqi bazasının təkmilləşdirilməsi;
- auditə dair qanunvericilik və normativ aktların layihələrinin hazırlanması üzrə birgə işlərin aparılması;
- qarşılıqlı informasiya və təcrübə mübadiləsinin aparılması;

- auditor kadrlarının hazırlanması, yenidən hazırlanması və beynəlxalq sertifikatlaşdırmanın təşviqi;

- auditor adı almaq üçün imtahan sisteminin təkmilləşdirilməsi;

- auditin keyfiyyətinə nəzarətin və ictimai nəzarət sisteminin təşkili;

- auditin rolunun, əhatə dairəsinin artırılması və onun funksiyalarının gücləndirilməsi;

- beynəlxalq təşkilatlar və peşəkar qurumlar tərəfindən təqdim edilmiş materialların öyrənilməsi, birgə müzakirəsi və tətbiqi;

- birgə konfransların, seminarların və simpoziumların təşkili;

- audit şirkətlərinin idarə edilməsinin təkmilləşdirilməsi və müstəqilliyinin təmin edilməsi;

- auditorlar və auditor təşkilatları barədə məlumatların avtomatlaşdırılmış işlənilməsi;

- haqsız rəqabətin aradan qaldırılması;

- auditor xidmətinin dəyərinin müəyyən edilməsi;

- korrupsiyaya qarşı mübarizə, cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə auditorların fəaliyyətinin gücləndirilməsi;

- peşəkar auditorların auditin idarə olunmasına və tənzimlənməsinə cəlb edilməsi;

- auditin mütərəqqi formalarının tətbiqi;

- auditdə informasiya texnologiyalarının tətbiqinin genişləndirilməsi.

### *4.7. Müstəqil auditin dövlət auditi və daxili auditlə əlaqələrinin təkmilləşdirilməsi*

Ölkədə maliyyə nəzarəti mexanizminin daha səmərəli təşkilini təmin etmək üçün dövlət nəzarəti ilə qeyri-dövlət nəzarəti, o cümlədən kənar audit arasında qarşılıqlı əlaqələrin daha təkmil qurulması zərurətə çevrilir.

İnkişaf etmiş ölkələrdə nəzarətin dövlət və qeyri-dövlət formaları arasında səmərəli və təkmil qarşılıqlı əlaqələr mövcuddur.

Qabaqcıl xarici təcrübə göstərir ki, qeyri-dövlət nəzarətini dövlətin həyata keçirdiyi sosial-iqtisadi proqramların monitorinqinin aparılmasına daha geniş cəlb etməklə, həm dövlət vəsaitlərindən daha səmərəli istifadə üçün zəmin yaradır, həm də geniş ictimaiyyəti dövlətin daha şəffaf rəqabət siyasəti yeritməsinə inamını daha da artırır.

Qeyd etmək lazımdır ki, «Auditor xidməti haqqında», «Prokurorluq haqqında», «Hesablama Palatası haqqında», «Büdcə sistemi haqqında» Azərbaycan Respublikasının qanunlarında, «Azərbaycan Respublikası Silahlı Qüvvələrinə Yardım Fondu haqqında» Əsasnamədə, «Milli Televiziya və Radio Şurası haqqında» Əsasnamədə, «Azərbaycan Respublikasının Mərkəzi Bankı nəzdində Azərbaycan İpoteka Fondu haqqında» Əsasnamədə, "Azərbaycan Respublikasında dövlət əmlakının idarə edilməsinin təkmilləşdirilməsi üzrə Dövlət Proqramı"nda və digər qanunvericilik və normativ sənədlərdə müstəqil auditin dövlət nəzarəti çərçivəsində tətbiqi müddəaları nəzərdə tutulmuşdur. Bu mənada dövlət nəzarəti ilə kənar nəzarət (müstəqil audit) arasında əlaqələrin qanunvericiliyin tələblərinin dürüst icrasının təmin olunması baxımından yeni əsaslarla qurulması təmin edilməlidir.

Belə bir vəziyyət digər dövlət nəzarət qurumlarının öz aralarında və dövlət nəzarəti orqanları ilə müstəqil auditorların qarşılıqlı əlaqələrinin qaydaya salınması və təkmilləşdirilməsi işini aktuallaşdırır. Bu mənada, xüsusi bir normativ sənədin hazırlanıb təsdiq edilməsinə böyük zərurət vardır. Bu sənəddə qeyri-dövlət nəzarətçilərinin dövlət nəzarəti orqanları nümayəndələri ilə birgə fəaliyyətdə

rəftarlarının prinsipləri, habelə yoxlama materialları üzrə mübahisəli məsələlərin razılaşdırılma qaydaları və digər məsələlər öz həllini tapmalıdır.

Auditin inkişafı onun digər müvafiq sahələrlə qarşılıqlı əlaqələrinin təhlilini və təkmilləşdirilməsini tələb edir. İlk növbədə, mühasibat uçotu, hesabatlılıq və vergiqoyma sahəsində auditlə uzlaşdırmanın mühüm əhəmiyyət kəsb etdiyini nəzərə almaq lazımdır.

Auditin inkişafı onun kənar və daxili növlərini birgə inkişaf etdirməyi, uzlaşdırmağı və onlar arasında qarşılıqlı əlaqənin düzgün qurulmasını tələb edir. Məlum olduğu kimi kənar auditin əsas vəzifələrindən biri təsərrüfat subyektində mövcud olan daxili nəzarəti düzgün qiymətləndirmək, zəruri hallarda onun nəticələrindən istifadənin mümkünlüyünü müəyyənləşdirməkdən ibarətdir. Başqa sözlə, kənar auditin aparılması prosesində düzgün qurulmuş daxili nəzarətin və auditin mövcudluğu təsərrüfat subyektində maliyyə hesabatlarının və bütövlükdə səmərəliliyin əsası kimi qəbul edilməlidir.

### *4.8. Beynəlxalq audit standartlarının tətbiqinin genişləndirilməsi*

Auditor fəaliyyətinin tənzimlənməsində və inkişafında öz peşə vəzifələrini yerinə yetirərkən auditorların rəhbər tutmalı olduqları audit standartları mühüm rol oynayır.

Audit standartlarının məqsədi auditə dair vahid baza tələblərini formalaşdırmaq və auditin keyfiyyətinə normativ tələbləri müəyyənləşdirməklə auditin etibarlığına təminat verməkdir.

Auditorlar Palatasının Beynəlxalq Mühasiblər Federasiyasına tamhüquqlu üzvlüyü ilə əlaqədar götürdüyü öhdəliklərə və həmin təşkilatla imzalanmış 2008-ci il 21 aprel tarixli memoranduma əsasən, Palatada 2009-cu il ərzində Beynəlxalq Audit və İnformasiyanın Düzgünlüyünün Təsdiqlənməsi Standartları Şurası tərəfindən işlənib hazırlanmış və Beynəlxalq Mühasiblər Federasiyası tərəfindən qəbul edilərək dərc edilmiş 32 adda beynəlxalq audit standartının, habelə Peşəkar Mühasiblərin Etika Məcəlləsinin Azərbaycan dilinə tərcümə edilməsi və nəşri üzrə işlər başa çatdırılmış, bununla da 2010-cu ilin 1 yanvar tarixindən etibarən ölkəmizdə beynəlxalq audit standartlarının tətbiqinə başlanması üçün tələb olunan normativ baza təmin edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 2421 nömrəli sərəncamı ilə təsdiq edilmiş «Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı»nın 13.1-ci – «Müstəqil audit sahəsində beynəlxalq standartların tətbiqi ilə əlaqədar tədbirlərin davam etdirilməsi» bəndinin icrasını təmin etmək və Beynəlxalq Mühasiblər Federasiyasının (IFAC) üzvlük tələblərinin Palata qarşısında yaratdığı öhdəlikləri yerinə yetirmək məqsədilə Auditorlar Palatasının Şurası 2013-cü il 25 yanvar tarixli 239/3 qərarı ilə ölkədə auditorların beynəlxalq audit standartlarının 2012-ci il versiyası ilə təmin olunması təşkil edilmişdir. Eyni zamanda, BAS-lara edilən əlavə və dəyişikliklərin Azərbaycan dilinə tərcümə edilməsi istiqamətində fəaliyyətinin gücləndirilməsi məqsədəmüvafiq hesab edilmişdir. Hal-hazırda BAS-ların son versiyasının Azərbaycan dilinə tərcümə və nəşr etdirilməsinə dair IFAC-la təşkilati işlər davam etdirilir. Bununla yanaşı, BAS-ların daha geniş tətbiqini təmin etmək məqsədilə aşağıdakı tədbirlərin həyata keçirilməsi tələb olunur:

1. Beynəlxalq audit tandartlarına və Peşəkar Mühasiblərin Etika Məcəlləsinə dair son əlavə və dəyişikliklərin müntəzəm olaraq auditorların ixtisasartırma kurslarının pro-

qramına daxil edilməsi;

2. Beynəlxalq Mühasiblər Federasiyasının (IFAC) "Kiçik və orta müəssisələr üçün keyfiyyətə nəzarət üzrə təlimat"ın tətbiqinə dair tədbirlərin həyata keçirilməsi;

3. Kiçik və orta müəssisələrdə beynəlxalq audit standartlarının tətbiqi üzrə normativ sənədlərin hazırlanması;

4. Firmadaxili audit standartlarının hazırlanması və tətbiqi;

5. IFAC-ın 1 saylı Beynəlxalq Keyfiyyətə Nəzarət Standartının tətbiqinin təkmilləşdirilməsi üzrə tədbirlərin həyata keçirilməsi.

6. Beynəlxalq audit standartlarının və Peşəkar Mühasiblərin Etika Məcəlləsinin tətbiqinə dair daimi seminarların təşkili.

Korrupsiyaya qarşı mübarizəyə dair Milli Fəaliyyət Planında isə müstəqil audit sahəsində beynəlxalq standartların tətbiqi ilə əlaqədar tədbirlərin davam etdirilməsi auditor xidmətlərinin təkmilləşdirilməsinin vacib istiqaməti kimi Auditorlar Palatasına tapşırılmışdır.

Beynəlxalq standartların tətbiqi zərurəti Prezident İlham Əliyevin məruzə və çıxışlarında mütəmadi olaraq vurğulanmış, vacibliyi göstərilmişdir. Buna misal olaraq, ölkə rəhbərinin aşağıdakı fikrini xatırlatmaq olar: "...bütün dövlət şirkətləri də beynəlxalq şirkətlər kimi fəaliyyət göstərməlidir. Beynəlxalq audit keçirilməlidir və bütün standartlar dünya səviyyəsində olmalıdır...".

Başqa sözlə, beynəlxalq standartların tətbiqi Azərbaycanda həyata keçirilən iqtisadi islahatların ayrılmaz hissəsidir, ölkəmizdə bazar iqtisadiyyatına keçid mərhələsinin başa çatmasına uyğun olaraq və dövlət başçısının tövsiyə və tapşırıqları əsasında həyata keçirilir. Eyni zamanda, beynəlxalq standartların tətbiqi Azərbaycanda auditor xidmətinin qarşısında ciddi vəzifələr qoyur. Bunlara beynəlxalq standartların tətbiqinin hüquqi və normativ bazasının davamlı olaraq təkmilləşdirilməsi və müntəzəm yenilənməsi, keyfiyyətə nəzarət sisteminin təkmilləşdirilməsi, normativ bazasının monitorinqi və beynəlxalq standartların tətbiqinə uyğunlaşdırılması daxildir.

### *4.9. Auditor xidmətində İKT-nin tətbiqi məsələləri*

Ölkə iqtisadiyyatının maliyyə nəzarətində xüsusi yer tutan və sahibkarlığın bir növü olan müstəqil auditor fəaliyyətində informasiya texnologiyaların tətbiqi və onlardan səmərəli istifadə olunması auditin keyfiyyətinin yüksəldilməsinə, onun operativ və çevik aparılmasına, sifarişçi və icraçı arasında düzgün münasibətlərin qurulmasına əsaslı zəmin yaradır.

Beynəlxalq təcrübə və qabaqcıl auditor şirkətlərinin nailiyyətləri birmənalı olaraq təsdiq edir ki, auditor xidmətinin müasir tələblərə cavab verən səviyyədə göstərilməsi İKT-nin tətbiqi ilə sıx əlaqəlidir.

Auditin aparılmasının mərhələlərindən asılı olaraq (məlumat toplanması, araşdırılması, təhlil olunmaqla güclü və zəif sahələrin müəyyənləşdirilməsi, maliyyə vəziyyətinin düzgün əks etdirilməsi, zəruri tövsiyə və təkliflərin hazırlanması və s.) informasiya daşıyıcılarının daha müasir texniki imkanlara malik olması bu fəaliyyətin davamlı inkişafına və təkmilləşdirilməsinə geniş şərait yaradır.

Auditdə tətbiq olunan informasiya texnologiyaları məqsəd və vəzifələrinə görə fərqlənir. Bununla bağlı əsas üç istiqamət, fikrimizcə, diqqətəlayiqdir:

1. Lokal şəbəkə auditorun (auditor təşkilatının) ilkin məlumatlarının formalaşdırılması üçün lazımdır. Belə ki, burada həm ofisdə yerləşən avadanlıqlardan, həm də mobil va-

sitələrdən istifadə etmək faydalıdır. Audit prosedurları üçün sahə və ya növündən asılı olaraq çeşidli kompyuter proqramlarından bəhrələnmək məqsədəmüvafiqdir. Həmin texniki imkanlar auditorun yetərincə lazımi biliklərə sahib olduğuna, işinin daha səmərəli təşkilinə, risklərin azaldılmasına və xidmət bazarında sağlam rəqabətlə yaxşı göstəricilər əldə etməyə şərait yaradır. Bu şəbəkədə auditorun məlumatları (başqa sözlə, "dosye") öz əksini tapır. Onlar ancaq icraçının mülkiyyətidir və açıqlanmamalıdır. Bunun üçün məlumatların düzgün qorunub saxlanılması auditin məxfiliyini və obyektivliyini təmin edir.

2. Açıq şəbəkə auditorun (auditor təşkilatının) elektron ünvanı, saytı və digər rabitə vasitələri daxil olmaqla, fəaliyyətinin nəticələrini əks etdirmək üçün zəruridir. Burada onun xidmət bazarında hansı mövqedə olması, apardığı auditlərin dinamikası, göstərdiyi xidmətin məntiqi nəticəsi kimi maliyyə vəziyyətinin səviyyəsi əks olunur. Auditor öz həmkarları və maraqlı tərəflərlə fikir mübadiləsi, diskussiyalar və forumlar aparmaqla ictimaiyyətə iqtisadiyyatda vəsaitlərin, o cümlədən maliyyə resurslarının şəffaf və aşkarlıqla istifadəsinə öz töhfəsini verir. Həmin prosesin düzgün və obyektiv məlumatlar əsasında aparılması zəruridir, əks halda auditor birmənalı olaraq öz nüfuz və mövqeyini itirə bilər.

3. Koordinasiya və nəzarət şəbəkəsinin genişləndirilməsi və təkmilləşdirilməsi Auditorlar Palatası tərəfindən həyata keçirilir. İKT-nin tətbiqi sahəsində Auditorlar Palatası tərəfindən aşağıdakı işlərin görülməsi nəzərdə tutulur:

- auditə dair müfəssəl elektron məlumat bazasının yaradılması və onun «E-hökumət» proqramı çərçivəsində ölkə şəbəkəsinə qoşulması;

- auditor xidməti göstərmək hüququ verən lisenziya və icazələrin verilməsi ilə əlaqədar elektron xidmətlərin təşkili;

- təsərrüfat subyektlərində aparılan auditlərin vahid məlumat reyestrinin yaradılması;

- sərbəst auditorlar və auditor təşkilatları tərəfindən verilən hesabatların elektron qaydada qəbul olunmasının təşkili;

- Palatanın üzvlərini və struktur bölmələrini əhatə edən elektron kargüzarlıq sisteminin tətbiqi;

- Palatanın rəsmi internet səhifəsinin imkanlarının və funksiyalarının genişləndirilməsi vasitəsilə maarifləndirmə və məlumatlandırma, habelə interaktiv sorğuların aparılması.

Həm yüksək kvalifikasiyalı peşəkar heyət, həm də çoxsaylı assistentlər tərəfindən tez və keyfiyyətli yoxlamaların aparılmasında istifadə olunan audit prosedurlarının dəqiq metodikası işlənmişdir. İKT-dən istifadə auditin aparılmasına çəkilən vaxta qənaət etməyə, göstərilən xidmətlərin keyfiyyətini yüksəltməyə, işçi qrupunun qısa zaman ərzində adaptasiya olunmasına imkan verir.

Aktual məsələlərdən biri auditin keyfiyyətinə xələl gətirmədən, maya dəyərini aşağı salmağa imkan verən auditor yoxlaması texnologiyasının yaradılmasıdır. Bu məsələnin həllinin əsas istiqaməti müasir İKT-lərin tətbiqi və auditin kompyuterləşdirilməsidir. Audit prosedurlarının əmək tutumluğunu azaltmaq yollarının həllindən biri auditor tərəfindən audit olunan iqtisadi subyektin kompyuter məlumatlar massivindən istifadə edə bilmək imkanları və bacarığıdır. Bu məqsədlə istər mövcud universal vasitələr (Microsoft Office paketinə daxil olan Excel, Access, Word, Outlook proqram məhsulları), eləcədə beynəlxalq şəbəkə audit şirkətləri tərəfindən tətbiq olunan xüsusi proqram təminatı məhsullarından

(CaseWare Audit, Audit Management Software, SwissAuditor, ASL Analytics Software, AD Audit Report Software və s.) istifadə edilə bilər.

Auditin avtomatlaşdırılması funksionalına aşağıdakı iş sənədləri bölmələri daxil edilmədir:

- Maliyyə hesabatları və yekun sənədlər;
- Auditin yekunlaşdırılması;
- Planlaşdırma;
- Risklərin qiymətləndirilməsi və qiymətləndirilmiş risklərin idarə edilməsi;
- Audit proqramı və prosedurları – aktivlər;
- Audit proqramı və prosedurları – kapital və öhdəliklər;
- Audit proqramı və prosedurları – mənfəət və zərər hesabları;
- Digər məlumatlar və nəzarət sənədləri.

**Maliyyə hesabatları və yekun sənədlər** bölməsinə imzalanmış maliyyə hesabatlarının əsli və ya surəti; sifarişçinin şərhləri daxil olmaqla rəhbərliyə ünvanlanmış tövsiyələr məktubu; rəhbərliyin imzalanmış təqdimat məktubu, maliyyə hesabatlarının nəzarət siyahısı; maliyyə hesabatlarında istifadə olunan digər məlumatlar; digər nəzarət sihahıları daxil edimәlidir.

**Auditin yekunlaşdırılması** bölməsinə ümumi audit yekunları; tapşırıq üzrə tərəfdaşın nəzarət qeydləri; tapşırığın keyfiyyətinə nəzarət qeydləri; məsləhətləşmələr və yekun nəticələr; sifarişçi ilə görüşlərin gündəlikləri; sifarişçinin vəzifəli şəxsləri ilə müzakirələrin gündəlikləri; tapşırıq üzrə tərəfdaşın təhlili iş sənədləri; dövriyyə-qalıq cədvəli; düzəlişlər jurnalı; fasiləsizlik təhlili; sonrakı hadisələrin təhlili; dövriyyə-qalıq cədvəli audit proqramı daxil edilməlidir.

**Planlaşdırma** bölməsinə auditin planlaşdırılmasının nəzarət siyahısı; ümumi audit strategiyası və planı; sifarişçinin qəbul edilməsi sorğu siyahısı; tapşırığın davam etdirilməsi sorğu siyahısı; audit məktub-öhdəliyi və ya müqavilə; əhəmiyyətlilik; riskin qiymətləndirilməsi və risklərin aşağı salınması; vəkillərin məktubu; əlaqəli tərəflərlə əməliyyatların açıqlanması; vaxt büdcəsi və işçi qrupunun tərkibi; rəhbərliklə fırıldaqçılıq barədə müzakirələr; sistem qeydləri; dəyişməz audit faylının təhlili; digər auditorların işindən istifadə; mütəxəssislərin işindən istifadə iş sənədləri daxil edilməlidir.

**Risklərin qiymətləndirilməsi və qiymətləndirilmiş risklərin idarə edilməsi** bölməsinə sifarişçinin biznes biliyinin anlaşılması; daxili nəzarət sorğu siyahısı; sifarişçinin anlaşılması və onun daxili nəzarət sistemi; fırıldaqçılığın qiymətləndirilməsi; analitik prosedurlar; iş sənədlərinin analitik təhlili; əlaqəli tərəflər və proqram iş sənədləri daxil edilməlidir.

**Audit proqramı və prosedurları – aktivlər** bölməsinə qeyri-maddi aktivlər; torpaq, tikili və avadanlıqlar; investisiya mülkiyyəti, bioloji aktivlər; təbii sərvətlər; iştirak payı ilə investisiyalar; digər maliyyə aktivləri; uzunmüddətli debitor borcları; təxirə salınmış vergi aktivləri; digər uzunmüddətli aktivlər; ehtiyatlar; qısamüddətli debitor borcları; qısamüddətli maliyyə aktivləri; pul vəsaitləri; digər qısamüddətli aktivlər – hər bir balans maddəsi üzrə titul vərəqi, audit proqramı, iş sənədləri və nəzarət testləri daxil edilməlidir.

**Audit proqramı və prosedurları – kapital və öhdəliklər** bölməsinə nizamnamə kapitalı; emissiya gəlirləri; geri alınmış kapital; kapital ehtiyatları; bölüşdürülməmiş mənfəət; uzunmüddətli faiz borcları yaradan öhdəliklər; uzunmüddətli qiymətləndirilmiş öhdəliklər; təxirə salınmış vergi öhdəlikləri; uzunmüddətli kreditor borcları; digər uzunmüddətli öhdəlik-

lər; qısamüddətli faiz borcları yaradan öhdəliklər; qısamüddətli qiymətləndirilmiş öhdəliklər; vergi və icbari ödənişlər; qısamüddətli kreditor borcları; digər qısamüddətli öhdəliklər – hər bir balans maddəsi üzrə titul vərəqi, audit proqramı, iş sənədləri və nəzarət testləri daxil edilməlidir.

**Audit proqramı və prosedurları – mənfəət və zərər hesabları** bölməsinə əməliyyat fəaliyyətindən gəlirlər; maliyyə fəaliyyətindən gəlirlər; investisiya fəaliyyətindən gəlirlər; əməliyyat fəaliyyətinin xərcləri; maliyyə fəaliyyətinin xərcləri; investisiya fəaliyyətinin xərcləri; mənfəət vergisi xərcləri – hər bir balans maddəsi üzrə titul vərəqi, audit proqramı, iş sənədləri və nəzarət testləri daxil edilməlidir.

**Auditin avtomatlaşdırılması üzrə proqramların tətbiqi**

Audit fəaliyyətiin avtomatlaşdırılmasının mürəkkəb həll olunan məsələ olmasını nəzərə alaraq, proqram təminatının istifadə olunmasının səmərəliliyi onun tətbiq olunmasından və istifadəçilərin təlimatlandırılmasından asılıdır. Proqram təminatının texniki imkanlarını və tətbiq olunmasını təfsilatı ilə araşdıracaq işçi qrupu yaradılmadır. İşçi qrupunun tərkibinə tapşırıq üzrə tərəfdaşlar, audit departamentinin rəhbərləri, daxili nəzarət şöbəsinin rəhbəri, keyfiyyətə nəzarət şöbəsinin rəhbəri, metodoloji şöbənin rəhbəri, tapşırıq işçi qruplarının rəhbərləri daxil edilməlidirlər. İşçi qrupu audit standartları, maliyyə hesabatları standartları və əlaqəli xidmətlər standartlarının tələblərinə müvafiq olaraq, həmçinin Azərbaycan Respublikasının qanunvericiliyinin tələbləri nəzərə alınmaqla, tətbiq ediləcək proqram təminatının əsas modullarını müəyyən etməlidir. Bu modullara mühasibat hesabları və hesabatların xəritələnməsi (mapping), maliyyə hesabatlarının (MHBS, İSMUS, KMÜMMUS, QHTMMUS və ya digər hesabat standartı) formalarının seçilməsi, iş sənədlərinin strukturu və formalarının müəyyən edilməsi, istinad yazılışları və işarələmələrin aparılması, həmçinin məlumatların saxlanması və serverdə istifadəçi hüquqlarını müəyyən etməsi daxildir.

### *4.10. Auditdə etika məsələləri*

Auditorlar Palatası tərəfindən hələ 2001-ci ildə auditor peşəsinin cəmiyyət qarşısında məsuliyyətini nəzərə alaraq və ölkədə auditin inkişafına, auditor fəaliyyətinin prinsipial məsələlərinin vahid metodoloji əsasda həllinə, habelə dövlətin, təsərrüfat subyektlərinin və auditorların mənafelərini müdafiəsinə xidmət etmək məqsədi güdən, ölkəmizdə fəaliyyət göstərən auditorların davranış normalarını və auditin məqsədlərinə nail olunması üçün auditorların riayət etməli olduqları fundamental prinsipləri əks etdirən Auditorların Peşə Etikası Məcəlləsi qəbul olunmuşdur.

Sonrakı illərdə Azərbaycanda auditin iqtisadi infrastruktur sahəsi olmaqla tam formalaşması və Auditorlar Palatasının beynəlxalq aləmə inteqrasiyası, xüsusən də Beynəlxalq Mühasiblər Federasiyasının (IFAC) tamhüquqlu üzvlüyünə qəbul olunması yeni öhdəliklər yaratmaqla, auditor peşəsinə olan tələblərin dairəsini bir qədər də genişləndirdi.

Bu dövrdən başlayaraq Peşəkar Mühasiblərin Etika Məcəlləsinin müəyyən etdiyi etik dəyərlərə riayət olunması zərurətə çevrilmiş oldu. BMF-yə üzvlüyün başlıca şərtlərindən biri bu məhz Məcəllənin ölkə qanunvericiliyinə və tənzimləyici qaydalara zidd olan hissələri istisna olmaqla Məcəllədə göstərilənlərdən az sərt olan standartların tətbiq edilməsinin yolverilməzliyidir.

Təsadüfi deyildir ki, Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 2421 nömrəli sərəncamı ilə təsdiq edilmiş

"Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nda maliyyə nəzarətçiləri tərəfindən etik davranışa riayət olunmasına xüsusi önəm verilmiş, bu münasibətlərin tənzimlənməsində sistemli yanaşmanın vacibliyi tələbi qoyulmuşdur. Buraya etik davranış məsələləri üzrə illik hesabatların hazırlanması (hesabatlarda aparılmış maarifləndirmə işləri, etik davranış qaydalarının pozulması halları və tətbiq edilmiş intizam tənbehi tədbirləri göstərilməklə), Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyaya təqdim edilməsi və ictimaiyyətə açıqlanması; etik davranış qaydalarının pozulması ilə bağlı daxil olmuş şikayətlərin effektiv araşdırılması mexanizmlərinin müəyyən edilməsi; dövlət orqanlarının internet saytlarında etik məsələlər üzrə xüsusi bölmənin yaradılması (qeyri-etik davranış barədə elektron şikayət etmə mexanizmi, etik qaydalar, etik hesabatlar və s.) kimi önəmli müddəalar daxildir.

"Milli Fəaliyyət Planı"nda duran məqsədlərə çatmaq üçün, ilk növbədə, auditorlar tərəfindən auditor etikasının əsas prinsiplərinə əməl edilməsinə nail olunmalıdır.

Etik davranış qaydaları baxımından dəyərləndirmə aparılması məqsədilə sərbəst auditorlar və auditor təşkilatlarının fəaliyyətlərində aşağıdakı istiqamətlərə xüsusi diqqət yetirilməlidir:

- «Cinayət yolu ilə əldə olunmuş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında» Azərbaycan Respublikası Qanununun sərbəst auditorlar və auditor təşkilatları qarşısında yaratdığı öhdəliklərin yerinə yetirilməsi ilə bağlı aparılmış monitorinqlərlə aşkar edilmiş çatışmazlıqlar barədə daxil olmuş məlumatlar üzrə aparılan araşdırmalara;
- şəffaflığın təmin olunması məqsədilə audit zamanı sərbəst auditorlar və auditor təşkilatları tərəfindən çatışmazlıqlara yol verilməsi faktları üzrə məlumatlar daxil olduqda, aparılan müzakirələrə;
- sərbəst auditorlar və auditor təşkilatları peşə etikası nöqteyi-nəzərindən öz vəzifə borclarını lazımınca yerinə yetirmədikdə, onlar barəsində müvafiq inzibati təsir tədbirlərinin görülməsinə;
- Auditorların Peşə Etikası Komitəsi ilə Auditorlar Palatasının Keyfiyyətə nəzarət komitəsinin fəaliyyətinin əlaqələnidilməsi işi daha da canlandırılmalıdır. Sərbəst auditorlar və auditor təşkilatları tərəfindən beynəlxalq və milli audit təcrübəsinə əsaslanaraq, peşə etikası normalarının tətbiq edilməsinin təhlili aparılmalı, peşə etikası qayda və normalarına daha dolğun riayət edilməsi üzrə davamlı tədbirlər həyata keçirilməlidir.

Nəhayət, auditorları öz vəzifə borcuna vicdanla yanaşmağa sövq edəcək amillərdən biri olaraq onların öz peşə vəzifələrini şərəf və ləyaqətlə yerinə yetirəcəyi, Azərbaycan Respublikasının qanunlarının tələblərinə riayət edəcəyi barədə auditor andının içilməsinin etik tələblərin ayrılmaz hissəsi kimi təqdim edilməsi məqsədəmüvafiq olardı.

Keyfiyyətə nəzarət komitəsi auditor fəaliyyətinin həyata keçirilməsi prosesində auditorların peşə etikasına dair məsələlərin müzakirəsində yaxından iştirak etməli, zəruri hallarda mütəxəssis-ekspertlərin rəyindən yararlanmalı, auditorların peşə etikası nöqteyi-nəzərindən öz vəzifə borclarını lazımınca yerinə yetirməməsi ilə bağlı araşdırmalar aparılan zaman prinsipallıq göstərməlidir.

### *4.11. Auditor xidmətlərinin növlərinin genişləndirilməsi sahəsində imkanlar*

Dünya təcrübəsi göstərir ki, auditor xidmətlərinin həcmində əlaqəli (və ya digər) xidmətlər əhəmiyyətli dərəcədə xüsusi çəkiyə

malikdir. Müxtəlif ölkələrdə belə xidmətlər auditin ümumi həcmində 10%-dən 30%-dək yer tutur və artmağa meyillidir. Bunun da səbəbi ölkə iqtisadiyyatı inkişaf etdikcə sahibkarların əsas diqqəti daha çox kommersiya məqsədlərinə və idarəetmə məsələlərinə yönəltmələri, proqnozlaşdırma və iqtisadi-maliyyə məsələləri üzrə qərar qəbuletmə proseslərində isə peşəkarların yüksək səviyyəli xidmətlərindən istifadə etməyə üstünlük verməlәridir. Ölkəmizin davamlı inkişafı əlaqəli auditor xidmətlərinə də ehtiyac yaratmışdır. Auditorlar məcburi və könüllü auditlə yanaşı, maraqlı tərəflərə geniş çeşidli digər auditor xidmətləri də göstərirlər. Bu xidmətlər əsasən aşağıdakı üç istiqamətdə genişləndirilə bilər:

1. Əməliyyat xidmətləri (iqtisadi suybektin sifarişi ilə sənədlərin – biznes planlarının, investisiya layihələrinin, müqavilələrin, qeyri-standart maliyyə və statistika hesabatlarının və s. tərtibi);

2. Nəzarət xidmətləri (sənədlərin şərtlərə uyğun tərtibinin, uçotun aparılmasının və hesabatların tərtibinin, vergi və digər ödəmələrin düzgün hesablanmasının və ödənilməsinin və s. yoxlanılması);

3. İnformasiya xidmətləri (bütün növ məsləhətlərin, metodik tövsiyələrin verilməsi, treninq və seminarların aparılması və s.).

Bu üç istiqamət 40-dan çox əlaqəli (digər) auditor xilmətini özündə ehtiva edir. Bundan başqa, auditin xüsusilə fərqlənən iki növü – səmərəlilik və uyğunluq auditləri də geniş təşəkkül tapmaqdadır. Səmərəlilik auditi müasir sivil nəzarət növü olmaqla, qənaətliliyin (əldə olunmuş nəticəyə çəkilən xərclərə qənaət olunmasının), məhsuldarlığın (xərclərin və nəticənin nisbətinə, yəni nəticənin hər vahidinə düşən xərcin) və nəticəliliyin (son sosial-iqtisadi səmərənin) müəyyənləşdirilməsi məqsədini daşıyır. Uyğunluq auditi iqtisadi subyektin müəyyən maliyyə və ya təsərrufat fəaliyyətinin qoyulmuş şərtlərə, qaydalara və ya qanunlara uyğunluğunu müəyyənləşdirmək məqsədilə həmin fəaliyyəti təhlil etməkdən ibarətdir. Azərbaycanda səmərəlilik və uyğunluq auditlərinin, habelə əlaqəli auditor xidmətlərinin proqnozlaşdırılması və maraqlı tərəflərə yüksək səviyyəli peşəkar xidmətlərin təqdim edilməsinin reallaşması auditin inkişaf konsepsiyasının tərkib hissəsidir. Belə xidmətlərin təqdim edilməsi üçün aşağıdakıların həyata keçirilməsi zəruridir:

1. Peşəkar əlaqəli auditor xidmətlərinin göstərilməsi üçün, klassik auditor xidmətləri göstərilməsi çərçivəsi ilə kifayətlənməyən, geniş biznes biliklərinə və ekspert səriştəliliyinə malik kadrların hazırlanması (belə kadrların sertifikatlaşdırılması şərti də istisna olunmamalıdır);

2. Belə xidmətlərin göstərilməsini tənzimləyən hüquqi və normativ bazanın təkmilləşdirilməsi;

3. İqtisadi subyektlərin və bütövlükdə ictimaiyyətin əlaqəli auditor xidmətləri barədə məlumatlandırılması və maarifləndirilməsi.

### *4.12. Auditdə maraqların uzlaşdırılması, sağlam rəqabət mühitinin yaradılması yolları və qiymətqoyma məsələləri*

Bu gün auditor xidmətində maraqlar toqquşmasının qarşısının alınması və mövcud olan haqsız rəqabət hallarının aradan qaldırılmasına böyük ehtiyac duyulur.

Bu problemlərin mövcudluğunun nəticəsidir ki, auditor xidməti sifarişçilərində auditə maraq heç də yüksək səviyyədə deyildir və auditin inkişafına arzuolunmaz maneələr yaranır.

Bu maneələr, bir tərəfdən, qanunvericilikdə mövcud olan müəyyən boşluqlardan (bu barədə bax: bölmə 3.1.), digər tərəfdən isə au-

ditorların öz vəzifələrinə tam məsuliyyətlə yanaşmamalarından və auditor xidmətinin istifadəçilərinin qanun qarşısında məsuliyyətini tam dərk etməmələrindən irəli gəlir.

Bu konsepsiya düzgün maraqlar sisteminin müəyyənləşdirilməsinə və qurulmasına nail olmağa yardım göstərməlidir. Məlumdur ki, sahibkarlığın xüsusi bir növü olaraq auditor xidmətinin spesifik maraq dairəsi vardır. Bu maraq istiqaməti cari və perspektiv kimi qeyd oluna bilər. Burada auditorun cari marağı fəaliyyət göstərilməsi üçün istənilən sifarişçi ilə iş qurmaqdan, perspektiv marağı isə özünün və ya təmsil etdiyi təşkilatın imicinin yüksəldilməsini bazarda olan daha nüfuzlu sifarişçi seçməkdən ibarətdir. Geniş mənada konsepsiya, bir tərəfdən, auditdən istifadə edənlərin, auditor təşkilatlarının, dövlət orqanlarının, dövlətin tənzimləyici orqanlarının maraqlarını öz aralarında razılaşdırmalı, digər tərəfdən isə bütün bunların cəmiyyətin maraqları ilə uzlaşdırılmasına zəmin yaratmalıdır. Bu mənada auditor xidməti bazarında güclü, haqlı və geniş rəqabətin bərqərar olmasına, auditorların yüksək peşə səviyyələrinə çatmalarına və keyfiyyətsiz auditə görə ciddi sanksiyaların tətbiqinə etiyac duyulur.

Maraqların düzgün tənzimlənməsinə nail olmadan auditorlarla təsərrüfat subyektləri arasında xidmətin imicini aşağılayan sövdələşmənin nəticəsi kimi meydana gələn və cəmiyyətdə «qara», «boz» və s. kimi neqativ adlarla tanınan, subyektin real iqtisadi vəziyyətini əks etdirməyən keyfiyyətsiz auditor rəylərinin qarşısının alınması mümkünsüz görünür.

Auditor xidməti sahəsində «qiymət-keyfiyyət» uyğunluğu probleminin həlli konseptual olaraq öz aktuallığını saxlayır. Bütövlüdə audit bazarında "Auditin dəyəri auditin keyfiyyətinə, auditin keyfiyyəti auditin dəyərinə uyğun olmalıdır" prinsipi ölçü meyarı kimi qəbul olunmalıdır. Bununla əlaqədar olaraq, auditor riski optimal seçmə metodunun tətbiqi, auditor xidmətində qiymətqoyma, əhəmiyyətlililik, hesabatlılığın düzgünlüyü, standartların düzgün tətbiqi kimi məsələlərlə bağlı görüləsi işlər yetərincədir.

Maraqlar toqquşması digər maliyyə nəzarətini həyata keçirən qurumlara münasibətdə də öz həllini tapmalıdır.

Bununla bağlı maliyyə nəzarətinin digər bölmələri ilə qarşılıqlı əlaqələri və səlahiyyət bölgüsü üzrə təkliflər işlənib hazırlanmalıdır.

Auditdəki dəyişikliklərin ümumi məqsədi daha münasib qiymətlə şirkətin maliyyə hesabatlarının düzgünlüyü üzrə daha etibarlı, şəffaf və mənalı məlumat verməklə, audit peşəsinin bazardakı rolunu gücləndirmək üçün maliyyə və qeyri-maliyyə bazarlarında effektiv fəaliyyətin davam etdirilməsidir.

Auditor xidmətində maraqların uzlaşdırılması üçün xidmətin dəyəri auditor və sifarişçi arasında razılaşdırılan bir kəmiyyət olduğundan, tərəflər bir-birinə ziddiyyət təşkil edən iki məqsəd: a) minimal audit risklərini təmin etməklə keyfiyyətli xidmət göstərilməsi və b) xidmətdən istifadə edən sifarişçinin xərclərinin – auditor xidmətinin dəyərinin minimallaşdırılması sahəsində qarşılıqlı razılığa (kompromisə) gəlməlidirlər.

Risklərin aşağı salınmasına, ilk növbədə, planlaşdırılan audit prosedurlarının və toplanan audit sübutlarının həcmini artırmaqla nail olmaq mümkündür. Bir tərəfdən, audit sübutlarının və audit prosedurlarının həcminin artırılması auditor xidmətinin dəyərinin yüksəlməsinə səbəb olur və nəticədə belə auditorların daha aşağı qiymətlərlə işləməyə "hazır" olan auditorlarla müqayisədə rəqabət qabiliyyəti aşağı düşür. Digər tərəfdən, yüksək audit riskləri şəraitində işləyən auditorların

fəaliyyəti sifarişçilərin və üçüncü tərəflərin maddi iddialarına səbəb ola bilir və nəticədə, cərimələrin ödənilməsi, həmçinin auditorların nüfuzunun iririlməsi ilə nəticələnir.

Auditor xidmətinin razılaşdırılmış dəyəri, ehtimal olunan itkilər və auditor xidmətinin keyfiyyəti arasındakı asılılığı aşağıdakı şəkildə təsvir etmək olar:

K - absis oxu - auditor xidmətinin keyfiyyəti

M - ordinat oxu - auditor xidmətinin maya dəyəri

İ - əyri xətt - ehtimal olunan itkilər

D - əyri xətt - auditor xidmətinin dəyəri

RD - əyri xətt – auditor xidmətinin razılaşdırılmış dəyəri

“Auditor xidmətinin keyfiyyəti” adlanan K absis oxu üzrə auditor xidmətinin keyfiyyətinin dəyişməsi əks etdirilmişdir. Auditin keyfiyyəti bir sıra faktorlardan asılıdır: audit prosedurları və toplanan audit sübutlarının həcmindən; auditorların və mütəxəssislərin ixtisas və peşəkarlaıq səviyyəsindən; auditorların və mütəxəssislərin iş təcrübəsindən; auditor tərəfindən tətbiq olunan texnologiyanın səviyyəsindən və s. Belə ki, iş həcminin artırılması və keyfiyyətin yüksəldilməsini hesabatda əhəmiyyətli səhvlərin aşkar edilməsi ehtimalının artması kimi təsvir etmək olar. O halda, keyfiyyət göstəricisi (K) kimi K=1 – AR (aşkar etməmə riski) formulundan istifadə edilə bilər.

“Auditor xidmətinin maya dəyəri” adlanan M ordinat oxu üzrə auditor xidmətinin maya dəyəri əks etdirilmişdir. Maya dəyərinə auditor və mütəxəssislərin əməyinin ödənişləri, icarə, lisenziya, kommunikasiya xərcləri, üzvlük haqları, avadanlıq və inventarların amortizasiyası, keyfiyyətsiz xidmətə görə ehtimal olunan maddi iddialar üzrə itkilər, kənar mütəxəssislərin xərcləri və digər xərclər daxildir.

D əyrisi auditor xidmətinin dəyərini əks etdirir. Şübhəsiz ki, auditor xidmətinin keyfiyyətinin artması ilə auditor xidmətinin dəyəri artır. İddialar üzrə ehtimal olunan itkilərə görə ödənişlər (İ əyrisi) xidmətin göstərilməsinə faktiki sərf edilən xərclər müqabilində maksimal məbləğ təşkil edir, auditor xidmətinin keyfiyyətinin yüksəldilməsi ilə aşağı düşür.




RD əyrisi qırıq-qırıq əyri ilə göstərilmişdir və auditor xidmətinin razılaşdırılmış dəyərini əks etdirir. Razılaşdırılmış dəyər xidmətin dəyərinin (D) və ehtimal olunan itkilərin (İ) toplanmasından alınan məbləğə bərabərdir. RD əyrisində minimum Ko nöqtəsi mövcuddur ki, auditor xidmətinin razılaşdırılmış dəyəri minimum məbləğə bərabərdir, auditor nöqteyinəzərindən “qiymət-keyfiyyət” münasibəti optimaldır. Auditor xidmətinin təşkilində keyfiyyətin K<Ko (bu nöqtədən solda) təşkili yüksək auditor risklərinə uyğundur. Keyfiyyətin artırılmasına çəkilən xərclər K>Ko (bu nöqtədən sağda) də məqsədəuyğun deyil, belə ki, bu auditor xidmətinin dəyərinin artmasına səbəb olur və sifarişçilərin itirilməsi ilə nəticələnə bilər.

# V. AZƏRBAYCAN RESPUBLİKASINDA AUDİTOR XİDMƏTİ BAZARININ İNKİŞAFININ PROQNOZLAŞDIRILMASI VƏ GÖZLƏNİLƏN NƏTİCƏLƏR

Auditor xidməti bazarının inkişafının proqnozlaşdırılması bu sahə üzrə mövcud göstəricilərin təhlilinə əsaslanmalıdır.

1996-2012-ci illər üzrə auditor xidməti üzrə göstəricilər (icra olunmuş müqavilələrin sayı və məbləği) aşağıdakı kimi olmuşdur:

| | 1996 | 1997 | 1998 | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Müqavilələrin sayı (ədəd) | 179 | 1040 | 1257 | 1232 | 1512 | 1723 | 2396 | 3587 | 3698 |
| Müqavilələrin məbləği (min AZN) | 660,0 | 4119,6 | 5088,6 | 4837,8 | 5662,6 | 5980,4 | 6313,8 | 5696,4 | 5602,2 |

| | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 |
|---|---|---|---|---|---|---|---|---|
| | 3512 | 3981 | 4184 | 3969 | 3752 | 2831 | 2869 | 3155 |
| | 8074 | 12702,5 | 15772,6 | 38147,1 | 23655,8 | 25556,9 | 21005,4 | 28903,0 |

**Bu göstəricilərin dinamikası aşağıdakı diaqramda verilmişdir.**




Diaqramdan göründüyü kimi, göstərilən dövr ərzində müqavilələrin sayında (xüsusilə 2005-ci ildən indiyədək) kəskin dəyişiklik olmamışdır:

| | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 |
|---|---|---|---|---|---|---|---|---|
| müqavilələr əvvəlki ilə nisbətən faizlə | 95,0 | 113,4 | 105,1 | 94,9 | 94,5 | 75,5 | 101,3 | 110,0 |




Lakin həmin dövr üzrə müqavilələrin natural göstəricisinin müqayisəsi ayrı təsəvvür yaradır:

| | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 |
|---|---|---|---|---|---|---|---|---|
| müqavilələrin sayı (ədədlə) | 3512 | 3981 | 4184 | 3969 | 3752 | 2831 | 2869 | 3155 |



Təqdim olunan cədvəl və diaqramdan belə bir nəticəyə gəlmək olar ki, 2012-ci ildə yerinə yetirilmiş müqavilələrin sayı 2005-2009-cu illər üzrə göstəricilərdən əhəmiyyətli dərəcədə azdır. Digər tərəfdən, icra olunmuş müqavilələrin sayı – auditdən məcburən keçməli olan subyektlərin sayı prizmasından da təhlil olunmalıdır. Yəni, 2005-1012-ci illərdə 3000-4000 audit keçirilmişdirsə, həmin dövr ərzində məcburi audit subyektlərinin sayında ciddi artım müşahidə olunmuşdur. Başqa sözlə, 2005-ci ildə 25 min məcburi audit subyektindən 3,5 mini (təxminən 14%) auditdən keçdiyi halda, 2012-ci ildə 45,8 min subyektdən yalnız 3,1 mini (6,7%) auditdən keçmişdir.

**Nəticə: təsərrüfat subyektləri tərəfindən qanunvericiliyin tələblərinə əməl edilməməsi və onların auditor xidmətlərindən istifadə etməmələri ölkədə auditin inkişafına mənfi təsir göstərməkdə davam edir.**

Məbləğ ifadəsində auditor xidmətinin həmin dövrdəki dinamikasına diqqət yetirək:

| | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 |
|---|---|---|---|---|---|---|---|---|
| Göstərilmiş auditor xidməti (min manatla) | 8074,0 | 12702,5 | 15772,6 | 38147,1 | 23655,8 | 25556,9 | 21005,4 | 28903,0 |

**Və ya qrafik şəklində:**




**Nəticə: təhlil olunan dövr ərzində auditor xidmətinın həcmi nəzərəçarpacaq dərəcədə artmışdır. Son illər Azərbaycanda audit intensiv yolla inkişaf edir. Məlumdur ki, xidmətin intensiv yolla (xidmət vahidinin dəyərinin yüksəldilməsi yolu ilə) inkişafı ilə xidmətin ekstensiv yolla inkişafı (xidmətin daha geniş sifarişçi kütləsini əhatə etməklə) arasında optimal tarazlıq (nisbət) mövcud olmalıdır.**

Auditor xidmətinin inkişafının ölkə üzrə ümumi daxili məhsul istehsalı və investisiya qoyuluşlarının dinamikası ilə müqayisə emək üçün həmin göstəricilərin 2005-2012-ci illər üzrə faktiki rəqəmləri əsas götürülmüşdür:

| | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 |
|---|---|---|---|---|---|---|---|---|
| Göstərilmiş auditor xidməti (min manatla) | 8074,0 | 12702,5 | 15772,6 | 38147,1 | 23655,8 | 25556,9 | 21005,4 | 28903,0 |
| ÜDM (mln manatla) | 12522,5 | 18746,2 | 28360,5 | 40137,2 | 35601,5 | 42465,0 | 52082,0 | 53995,0 |
| İnvestisiya qoyuluşu (mln manatla) | 6 733.4 | 7 415.6 | 10 353.9 | 13 328.0 | 10 475.0 | 14 118,9 | 17 048,8 | 17270,0 |

**Auditor xidmətinin ölkə üzrə ÜDM və investisiya qoyuluşlarının həcmi ilə müqayisə diaqramı**




Diaqramda diqqəti cəlb edən məqam odur ki, ölkəmizdə auditor xidmətinin həcminin artması ilə ümumi daxili məhsul istehsalı və investisiya qoyuluşu dinamikasında nəzərəçarpan oxşarlıq müşahidə olunur. Bu oxşarlıq özünü daha qabarıq şəkildə hər üç göstərici üzrə 2008-ci ildə göstərir. Belə ki, həmin ildə həm ümumi daxili məhsul istehsalı və investisiya qoyuluşu üzrə, həm də auditor xidmətində kəskin artım müşahidə olunmuşdur.

**Nəticə: təhlil olunan dövr ərzində auditor xidmətinin həcmində sabit artım var və bu artım ümumi daxili məhsul istehsalı və investisiya qoyuluşları ilə mütənasibdir.**

Auditor xidmətinin həcmi ilə ÜDM arasında belə mütənasiblik mövcud olduğu halda, əhalinin hər nəfərinə düşən ÜDM ilə hər min nəfərə düşən auditor xidməti arasında da eyni asılılıq müşahidə olunur:

| | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 |
|---|---|---|---|---|---|---|---|---|
| hər nəfərə düşən ÜDM (manatla) | 1494,3 | 2208,2 | 3296,6 | 4603,7 | 4033,2 | 4753 | 5752,9 | 5884,5 |
| hər 1000 nəfərə düşən auditor xidməti (manatla) | 963,5 | 1496,3 | 1833,4 | 4375,4 | 2679,9 | 2860,5 | 2320,2 | 3149,9 |




Qeyd: 2010-2011-ci illərdə auditor xidmətinin məbləğ ifadəsində həcminin nisbətən aşağı düşməsi çoxsaylı səbəblərdən (dünyada müşahidə olunan auditə inamın azalmasından, göstərilən xidmətlərin səviyyəsinin aşağı düşməsindən, bir sıra iqtisadi subyektlərin öz maliyyə hesabatlarının şəffaflığının marağında olmamasından və s.) izah oluna bilər. Lakin bu səbəblərdən biri kimi aşağıdakını vurğulamaq zəruridir.

Məlumdur ki, son illərdə ölkəmizdə auditor xidmətinin tərkib hissəsi olan konsaltinq xidmətləri göstərən hüquqi şəxslərin fəaliyyətində canlanma hiss olunur. Bu, təbii bir haldır. Ölkəmizin investisiya cəlbediciliyi, çoxsaylı xarici investisiyalı və ya qarışıq mülkiyyətli müəssisələrin yaranmasına səbəb olmuşdur. Həmin müəssisələr özlərinin mühasibat uçotunun aparılmasını və maliyyə hesabatlarının hazırlanmasını, ölkəmiz üçün nisbətən yeni olan bir formada – bu sahədə ixtisaslaşmış auditor və ya konsaltinq şirkələrinə sifariş etməklə aparırlar. Belə fəaliyyət qanunvericiliklə xüsusi razılıq (lisenziya) tələb etmir, bu xidmətlər həm auditor şirkətləri, həm də digər şirkətlər tərəfindən göstərilir. Son illərdə belə bir təcrübə də nəzərə çarpır ki, xarici investisiyalı bir sıra auditor şirkətləri özlərinin sırf konsaltinqlə məşğul olan törəmə və ya qohum şirkətlərini yaradırlar. Onlar tərəfindən göstərilən konsaltinq xidmətləri bu şirkətlərə ötürülür. Bu növ şirkətlərin isə Auditorlar Palatası qarşısında hesabatvermə öhdəlikləri yoxdur. Nəticədə vaxtilə auditor şirkətləri tərəfindən öz hesabatlarında göstərilən və Palata tərəfindən icmala daxil edilən əhəmiyyətli həcmdə əlaqədar auditor xidmətləri göstəri-

ciləri audit üzrə Palatanın statistik göstəricilərindən kənarda qalır.

Aparılan təhlil göstərir ki, auditor xidmətinin orta artım sürəti 2005-2012-ci illərdə 10%, son 4 illdə isə 6% təşkil etmişdir. Lakin həmin dövrlərdə bu artımın sabit olmaması tam əminliklə proqnozlaşdırmaya imkan vermir. Makroiqtisadi göstəricilərlə paralellik də yalnız artmaya doğru tendensiyanın mövcudluğunu təsdiq edir. Ona görə də proqnozlaşdırma məqsədləri üçün minimum artım faizi, yəni son illərdə müşahidə olunan 6% artım sürətini götürmək, başqa sözlə, baza göstəricisi kimi minimum həddən istifadə etmək məcburiyyəti yaranır.

Belə olan halda 2013-2020-ci illər üzrə auditor xidmətinin məbləğ ifadəsində minimal həcmi aşağıdakı kimi ola bilər:

**Proqnozlaşdırma variantı 1.**

Auditin əvvəlki illərdə müşahidə olunan minimum artım faizi (6%) ilə proqnozlaşdırılması

| | 2012 (fakt) | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Auditor xidməti (milyon manatla) | 28.9 | 30.6 | 32.5 | 34.4 | 36.5 | 38.7 | 41.0 | 43.5 | 46.1 |

Əvvəldə qeyd edildiyi kimi, ölkəmizdə auditor xidmətinin həcminin artması ilə ümumi daxili məhsul istehsalı dinamikasında nəzərəçarpan uyğunluq müşahidə olunur. Əgər bu nisbət və ümumi daxili məhsul istehsalının daha səciyyəvi son 5 ildəki dinamikasındakı (2008 - 40137.2 mln. manat, 2009 - 35601.5 mln. manat, 2010 – 42465 mln. manat, 2011 – 52082 mln. manat, 2012 – 53995. mln manat) artım sürəti əsas götürülsə (41.53-11.30+19.28+22.65+3.67=75.82/5= 15.16%) auditor xidmətinin həcminin aşağıdakı proqnoz göstəriciləri alınır:

**Proqnozlaşdırma variantı 2.**

Auditin ümumi daxili məhsul istehsalının 2008-2012-ci illərdəki dinamikasında müşahidə olunan orta artım faizi (15.16%) ilə proqnozlaşdırılması

| | 2012 (fakt) | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Auditor xidməti (milyon manatla) | 28.9 | 33.3 | 38.3 | 44.1 | 50.8 | 58.5 | 67.4 | 77.6 | 89.4 |

Auditor xidmətinin inkişafının proqnozlaşdırılması zamanı digər mühüm bir amil də nəzərə alınmışdır.

Bu konsepsiyanın «Məcburi auditdən keçmənin aşağı olmasının səbəbləri» fəslində Vergilər Nazirliyi tərəfindən təqdim edilmiş operativ məlumatla Palatanın informasiya bazasının müqayisəli məlumatına əsasən 2013-cü il 1 yanvar tarixinə məcburi audit obyektlərinin auditdən keçmə faizlərinə dair cədvəl verilmişdir. Həmin cədvələ əsasən məcburi audit obyektlərinin auditdən keçmə faizi son 5 ildə 9-11% arasında olmuşdur.

"Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə dəyişiklik və əlavələr edilməsi barədə Azərbaycan Respublikasının 2011-ci il 11 fevral

tarixli 65-IV QD nömrəli Qanununa və həmin Qanunun tətbiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 13 aprel tarixli sərəncamına əsasən, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinə «Məcburi auditdən yayınma» adlı 247-3-cü maddə əlavə edilmiş və Qanunla nəzərdə tutulmuş hallarda həyata keçirilməli olan məcburi auditdən yayınmağa görə vəzifəli şəxslər üçün üç yüz manatdan altı yüz manatadək miqdarda, hüquqi şəxslər üçün isə min beş yüz manatdan iki min beş yüz manatadək miqdarda cərimə müəyyən edilmişir. Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın 13.3-cü -- "Məcburi auditdən yayınmaya görə inzibati məsuliyyətin tətbiqi ilə bağlı mexanizmlərin müəyyən edilməsi üçün tədbirlər görülməsi" maddəsinə əsasən göstərilən vəzifənin icrası Vergilər Nazirliyinə və Auditorlar Palatasına tapşırılmışdır.

Bu sahədə müvafiq tədbirlərin görülməsini nəzərə alaraq, göstərilən inzibati tədbirin yaxın dövrdə tətbiqinə başlanması artıq reallığa çevrilir.

Ölkədə məcburi audit subyektlərinin sayının 45 mindən çox olduğu nəzərə alınsa, onda inzibati cəzanın tətbiqi ilə əlaqədar auditdən keçmənin kəskin surətdə artması gözlənilə bilər. Bu zaman aşağıdakılar nəzərə alınmalıdır.

Təbii ki, yaxın 1-2 ildə auditdən keçmə eyni vaxtda bütün 45 min subyekti əhatə edə bilməz. Bu subyektlərin tərkibində fəaliyyətsiz və çox kiçik dövriyyəsi olan sadələşdirilmiş vergi ödəyicələri olan müəssisələr əksəriyyət təşkil edir. Orta və iri həcmli, yəni ƏDV ödəyiciləri olan müəssisələrin sayı 17-18 mindir və audit baxımından əhəmiyyətli müəssisələr də məhz onlardır.

Auditin məcburiliyinin inzibati tədbirlərlə təmin edildiyi və bu barədə maraqlı tərəflərin intensiv məlumatlandırıldığı və maariflən-dirildiyi şəraitdə, ƏDV ödəyicilərinin yaxın illər ərzində yüksələn xətlə məcburi auditə cəlb olunacağını gözləmək olar.

Eyni zamanda nəzərə alınmalıdır ki, bu müəssisələr indiyədək auditdən yayınmış müəssisələrdir və auditor xidmətinin dəyərinin ödənilməsi zamanı, güman ki, mümkün qədər aşağı məbləğ müəyyənləşdirmək niyyətində olacaqlar. Bu məqam Palata tərəfindən diqqətdə saxlanmalı və tövsiyə olunan mimimum qiymət hədlərinə riayət olunmasına nəzarət gücləndirilməlidir. Ona görə də proqnozlaşdırma zamanı, auditə yeni cəlb olunan subyektlərin Palata tərəfindən tövsiyə olunan mimimum qiymət hədlərində müqavilə bağlayacaqları ehtimal oluna bilər.

Başqa sözlə, yaxın illərdə ehtimal olunan əhəmiyyətli audit subyektlərinin yüksələn xətlə, ildə 30% artım olmaqla, minimum qiymətlər tətbiq edilməsi şərtilə auditə cəlb olunması, 2020-ci ilədək isə yaranacaq durumun dayanıqlılığı proqnozlaşdırıla bilər.

Göstərilənlər nəzərə alınmaqla, auditor xidmətinin proqnozlaşdırılan həcmi aşağıdakı düsturla ifadə oluna bilər:

PH= TH + MH

Burada PH – xidmətin proqnozlaşdırılan həcmi;

TH – xidmətin mövcud tendensiya üzrə artımla həcmi;

MH - məcburi auditlə əlaqədar inzibati tədbirlərin tətbiqi nəticəsində xidmətin gözlənilən artım həcmi.

Bütün göstərilənlərn nəzərə alınmaqla, 2013-2020-ci illər üzrə auditor xidmətinin

məbləğ ifadəsində minimal həcmi aşağıdakı kimi ola bilər:

**Proqnozlaşdırma variantı 3.**

Bu konsepsiyada nəzərdə tutulmuş təşkilati-hüquqi tədbirlərin reallaşdırılması auditor xidmətinin tənzimlənməsinin təkmilləşdirilməsi və məcburi auditdən yayınmanın qarşısının alınmasına dair inzibati məsuliyyətə dair mövcud qanunvericiliyin tətbiqinə əsaslanan auditor xidmətinin artmasına dair proqnoz göstəriciləri aşağıdakı cədvəldə öz əksini tapmışdır.

| | 2012 (fakt) | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Auditor xidməti (milyon manatla) | 28,9 | 30,6 | 36,8 | 46,0 | 59,8 | 73,6 | 101,2 | 138,0 | 165,6 |

Azərbaycanda 2020-ci ilədək auditor xidmətinin həcm artımının yuxarıda göstərilən 3 variant üzrə proqnozların orta statistik göstəricisi 4-cü variant kimi konsepsiyada nəzərdə tutulmuşdur.

**Proqnozlaşdırma variantı 4.**

| | 2012 (fakt) | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Auditor xidməti (milyon manatla) | 28,9 | 31,5 | 35,9 | 41,5 | 49,0 | 56,9 | 69,9 | 86,4 | 100,4 |

Auditor xidmətinin həcminin artımına dair bütün nəzərdə tutulmuş variantlar üzrə proqnoz göstəriciləri aşağıdakı cədvəldə verilmişdir.

| | 2012 (fakt) | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Variant 1 | 28,9 | 30,6 | 32,5 | 34,4 | 36,5 | 38,7 | 41 | 43,5 | 46,1 |
| Variant 2 | 28,9 | 33,3 | 38,3 | 44,1 | 50,8 | 58,5 | 67,4 | 77,6 | 89,4 |
| Variant 3 | 28,9 | 30,6 | 36,8 | 46,0 | 59,8 | 73,6 | 101,2 | 138,0 | 165,6 |
| Variant 4 | 28,9 | 31,5 | 35,9 | 41,5 | 49,0 | 56,9 | 69,9 | 86,4 | 100,4 |

Auditor xidmətinin proqnozlaşdırılmasında natural göstəricilərin də (icra olunmuş müqvilələrin) nəzərə alınması zəruridir.

Yuxarıda göstərilən proqnozlaşdırma variantlarından natural göstəricilərin proqnozlaşdırılmasında da istifadə edilərsə ("Auditin əvvəlki illərdə müşahidə olunan minimum artım faizi (6%) ilə proqnozlaşdırılması – variant 1" və konsepsiyada nəzərdə tutulmuş və məcburi auditlə əlaqədar inzibati tədbirlərlərin tətbiqi nəticəsində gözlənilən həcm artımı ilə proqnozlaşdırılması – variant 3), natural göstəricilərin proqnozlaşdırılması aşağıdakı kimi olar:

**Auditor xidmətinin natural ifadədə proqnozlaşdırılması (icra olunacaq müqavilələr - min ədədlə)**

| | 2012 (fakt) | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Variant A<br>Auditin əvvəlki illərdə müşahidə olunan minimum artım faizi (6%) ilə proqnozlaşdırılması | 3,1 | 3,3 | 3,5 | 3,7 | 4,0 | 4,2 | 4,5 | 4,7 | 5,0 |
| Variant B<br>Konsepsiyada nəzərdə tutulmuş və məcburi auditlə əlaqədar inzibati tədbirlərin tətbiqi nəticəsində gözlənilən həcm artımı ilə proqnozlaşdırılması | 3,1 | 3,3 | 4,0 | 5,0 | 6,5 | 8,0 | 11,0 | 15,0 | 18,0 |

Natural göstəricilərin artımı, öz növbəsində, proqnozlaşdırılan dövrdə auditor kadrlarının hazırlığı problemini həll etməyi tələb edir.

Məlumdur ki:

1. Bir müqavilənin icrasına minimum 5 gün vaxt sərf edilməlidir;

2. Auditorun işi mövsümidir və göstərilmiş xidmətlərin təxminən 70%-i ilin birinci yarısına təsadüf edir.

İlin birinci yarısında 135-140 iş günü (orta iş günü – 137,5) olması nəzərə alınsa, proqnozlaşdırılan natural göstəricilər əsas götürülməklə, aşağıdakı qaydada növbəti illərdə tələb olunan auditor kadrlarına tələbatı müəyyən etmək olar:

1. Bir auditor ilin birinci yarısında cəmi 28 müqavilə icra edə bilər (137, 5 iş günü / bir müqavilənin icrasına zəruri olan 5 iş günü);

2. Proqnozlaşdırılan illər üzrə natural göstəricilər 28-ə bölünərsə, həmin işin görülməsi üçün zəruri olan kadrların sayı müəyyən edilə bilər.

Beləliklə, yuxarıda göstərilən qayda tətbiq edilməklə, proqnozlaşdırılan auditor kadrlarına tələbat aşağıdakı kimi ehtimal olunur:

**Auditor kadrlarına tələbatın 2015-2020-ci illər üzrə proqnozlaşdırılması (nəfərlə)**

| 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|
| 125 | 163 | 200 | 274 | 374 | 451 |

Cədvəldən göründüyü kimi, 2020-ci ilə qədər olan dövr üçün auditor kadrlarına tələbatın 4 dəfəyə yaxın artması gözlənilir.

Qeyd etmək lazımdır ki, yuxarıda göstərilən proqnoz rəqəmləri yalnız lisenziyalı auditorları əhatə etməklə, onların öz iş günlərindən 100% istifadə etmələri şərtilə hesablanmışdır ki, bu da həmin rəqəmlərin minimum həddə müəyyən edilməsi deməkdir. Nəzərə alsaq ki, iş vaxtından istifadə əmsalı real vəziyyətdə 100%-dən aşağı ola bilir (mövcud istifadə əmsalı ölkənin audit sistemində 60%-ə yaxın təşkil edir). Məşğulluğun 80% səviyyəsində qəbul edildiyi halda, 2020-ci ildə ölkədə lisenziyalı auditorların sayının 540-a yaxın olacağı barədə fikir yükütmək olar. Eyni zamanda, beynəlxalq audit təcrübəsində bir nəfər lisenziyalı auditora 5-6 nəfər assistent, mütəxəssis və digər köməkçi heyətin düşdüyünü nəzərə alsaq, proqnozlaşdırılan dövrün sonuna ölkənin audit sistemində 3500-ə yaxın işçinin çalışacağı proqnozlaşdırılır. Bu isə, öz növbəsində, ölkədə həyata keçirilən məşğulluq proqramına öz töhfəsini verəcəkdir.

Konsepsiyada əhalinin hər 1000 nəfərinə düşən auditor xidmətinin həcmi də yuxarıda göstərilən proqnoz göstəricilərinə görə müəyyən olunmuşdur.

***min manatla***

| | 2012 (fakt) | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Variant 1 | 3,150 | 3,267 | 3,399 | 3,524 | 3,663 | 3,805 | 3,949 | 4,105 | 4,261 |
| Variant 2 | 3,150 | 3,120 | 3,086 | 3,054 | 3,024 | 2,995 | 2,967 | 2,938 | 2,910 |
| Variant 3 | 3,150 | 3,267 | 3,849 | 4,713 | 6,002 | 7,237 | 9,748 | 13,021 | 15,307 |
| Variant 4 | 3,150 | 3,218 | 3,445 | 3,764 | 4,230 | 4,679 | 5,554 | 6,688 | 7,493 |

Və ya diaqramla:




Göründüyü kimi, hər 1000 nəfərə düşən auditor xidmətinin həcmi 2012-ci ilə nisbətən 1,4-4,9 dəfə artacaqdır.

**Təhlil və proqnozlaşma ilə əlaqədar aşağıdakı nəticələrə gəlmək olar:**

**1. Kompleks amillərin (auditdə müşahidə edilən artım tendensiyasının, qanunvericilikdə olan boşluqların aradan qaldırılması, inzibati tədbirlərin tətbiqi vasitəsilə auditdən yayınmanın aradan**

qaldırılması (tətbiq edildiyi tədqirdə) və s.) təsiri altında yaxın illərdə (2014-2020-ci illərdə) auditor xidmətinin həcminin həm pul ifadəsində, həm də natural ifadədə ciddi artımı gözlənilir.

2. Bu artım əsasən yerli auditor şirkətlərində, həm də sərbəst auditorlarda müşahidə olunmalıdır. Auditin həcminin artımı əsasən hazıradək auditdən yayınan subyektlər hesabına baş verəcəyi ehtimal olunur. Həmin subyektlər isə transmilli auditor şirkətlərinin ("Böyük dördlüyün", "Onluğun" və "İyirmiliyin") müştəri qrupuna aid deyildir. Ona görə də xarici auditor təşkilatlarının dövriyyəsinin yalnız təbii artım tendensiyasına müvafiq olaraq artması, bütövlükdə isə ümumi xidmət bazarında onların xüsusi çəkisinin azalması (məbləğ ifadəsində artsa da) gözlənilə bilər.

3. Kadr hazırlığı sahəsində ciddi irəliləyişlərə nail olunmalıdır.

# "AZƏRBAYCAN RESPUBLİKASINDA AUDİTOR XİDMƏTİNİN İNKİŞAF KONSEPSİYASI"NDA 2014-2020-ci İLLƏRDƏ HƏYATA KEÇİRİLMƏSİ NƏZƏRDƏ TUTULMUŞ TƏDBİRLƏRİN İCRASININ TƏQVİM PLANI

| Sıra №-si | Tədbirlərin adı | İcra müddəti | Qeyd |
|---|---|---|---|
| I | **Auditor xidmətinin normativ hüquqi bazasının təkmilləşdirilməsi üzrə:** | | |
| 1 | «Auditor fəaliyyəti haqqında» Azərbaycan Respublikası qanununun layihəsinin hazırlanmasının başa çatdırılması | 2014 | |
| 2 | «Auditor fəaliyyəti haqqında» qanunun layihəsinin ictimai müzakirəyə çıxarılması və müvafiq qurumlarla razılaşdırılması | 2014 | |
| 3 | «Auditor fəaliyyəti haqqında» yeni qanunun qəbulu ilə əlaqədar Azərbaycan Respublikasının qanunvericilik aktlarına və digər normativ hüquqi sənədlərə ediləcək əlavə və dəyişikliklərin layihələrinin hazırlanması | 2015-2016 | |
| 4 | Daxili audit haqqında qanunvericiliyin təkmilləşdirilməsi üzrə hazırlanmış təkliflərin ictimai müzakirəsi | 2015 | |
| 5 | Auditin hüquqi bazasının təkmilləşdirilməsi üzrə beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi üzrə müvafiq təkliflərin hazırlanması | 2014-2020 | |
| 6 | Maliyyə nəzarəti, mühasibat uçotu və audit üzrə qanun layihələrinin hazırlanmasında iştirak edilməsi və ya rəy verilməsi | 2014-2020 | |

| | | | |
|---|---|---|---|
| **II** | **Auditor fəaliyyətinin idarə olunması, tənzimlənməsi və auditin institusional potensialının gücləndirilməsi üzrə:** | | |
| 1 | Auditorlar Palatasının fəaliyyəti barədə ictimaiyyətin müntəzəm məlumatlandırılması | 2014-2020 | |
| 2 | Auditin tənzimlənməsinin təkmilləşdirilməsi və Auditorlar Palatasının statusunun beynəlxalq təcrübə əsasında yenidən müəyyən edilməsi | 2015-2016 | |
| 3 | Auditor xidməti sahəsində qadağaların beynəlxalq təcrübəyə uyğunlaşdırılması | 2015-2016 | |
| 4 | Şəffaf araşdırma və sanksiyalar sisteminin tətbiqi | 2015-2020 | |
| 5 | Auditin institusional potensialının gücləndirilməsi | 2015-2017 | |
| 6 | Auditin idarə edilməsi və tənzimlənməsi sahəsində beynəlxalq təcrübənin tətbiqinin genişləndirilməsi | 2015-2017 | |
| 7 | Auditorların fəaliyyətinə kənar nəzarətin təmin edilməsi üçün müvafiq hüquqi və institusional tədbirlərin həyata keçirilməsi | 2015-2016 | |
| 8 | Auditorlar Palatasının fəaliyyətinə nəzarətin təşkili | 2015 | |
| 9 | Auditorlarla əlaqələrin yüksək texnologiyaların tətbiqindən istifadə olunmaqla genişləndirilməsi və onların idarəetməyə daha aktiv cəlb edilməsi (o cümlədən komitələr və işçi qrupları çərçivəsində) | 2015-2020 | |
| 10 | E-kargüzarlıq sisteminin tətbiqi | 2015 | |
| 11 | Auditorlar Palatasının maliyyə təminatının gücləndirilməsi:<br>a) Yeni üzvlərin cəlb edilməsi;<br>b) Peşə kurslarının intensivliyinin və çeşidinin artırılması;<br>c) Mənfəətli törəmə müəssisələrin yaradılması;<br>ç) Donor yardımları;<br>d) Digər mənbələr | 2014-2020<br>2014-2016<br>2014-2015<br>2015-2017<br>2014-2020<br>2014-2020 | |
| 12 | Auditor xidmətinin inkişafında və tənzimlənməsində Auditorlar Palatasının Şurası yanında komitələrin rolunun gücləndirilməsi | 2014-2020 | |
| 13 | Auditin inkişafında ictimai etimadın gücləndirilməsi istiqamətində tədbirlər sisteminin hazırlanması və tətbiqi | 2015-2020 | |
| 14 | Fəaliyyətin əsas meyar göstəriciləri olan illik dövriyyənin həcmi, işçilərin sayı ilə bağlı auditin əhatə dairəsinin dəqiqləşdirilməsi üzrə hüquqi bazanın müəyyən edilməsi | 2016 | |

| | | | |
|---|---|---|---|
| **III** | **Beynəlxalq audit standartlarının tətbiqinin genişləndirilməsi üzrə:** | | |
| 1 | Beynəlxalq audit standartlarının tərcüməsi və nəşri | 2014 | |
| 2 | Peşəkar Mühasiblərin Etika Məcəlləsinin tərcüməsi və nəşri | 2015 | |
| 3 | Beynəlxalq audit standartlarının şərhlərinin tərcüməsi və nəşri | 2015-2016 | |
| 4 | Kiçik və orta müəssisələr üçün BAS-ların tərcüməsi və nəşri | 2015-2016 | |
| 5 | Kiçik və orta müəssisələr üçün audit standartlarının tətbiqinə başlanması | 2016 | |
| 6 | Mövcud olan “Auditor adı almaq üçün imtahanların keçirilməsi qaydaları”nın və “Auditorların ixtisasartırılması qaydaları”nın Beynəlxalq Təhsil Standartlarının tələbləri nəzərə alınaraq təkmilləşdirilməsi | 2015 | |
| 7 | Beynəlxalq Mühasiblər Federasiyası (BMF) tərəfindən sərbəst auditor və mühasib adları almaq üçün keçiriləcək imtahanlara dair tövsiyələrə uyğun olaraq Azərbaycanda auditor adı almaq üçün imtahanların çoxpilləli sisteminin tətbiqi | 2016 | |
| 8 | Auditor xidmətinin keyfiyyətinə nəzarətin beynəlxalq qurumların qəbul etdiyi sənədlərə uyğunlaşdırılmasına nail olunması | 2014-2020 | |
| 9 | Beynəlxalq audit standartlarına və Peşəkar Mühasiblərin Etika Məcəlləsinə dair son əlavə və dəyişikliklərin müntəzəm olaraq auditorların ixtisasartırma kurslarının proqramına daxil edilməsi | 2014-2020 | |
| 10 | Milli auditor təşkilatları üçün nümunəvi firmadaxili audit standartlarının hazırlanması və tətbiqi | 2015-2017 | |
| 11 | Beynəlxalq audit standartlarının və Peşəkar Mühasiblərin Etika Məcəlləsinin tətbiqinə dair daimi seminarların təşkili | 2014-2020 | |
| 12 | Auditor andı içilməsinin tətbiq edilməsi | 2015 | |
| **IV** | **Auditor xidmətinin keyfiyyətinin yüksəldilməsi üzrə:** | | |
| 1 | Auditin keyfiyyətinə nəzarətə dair beynəlxalq standartların tətbiqinin genişləndirilməsi | 2014-2020 | |
| 2 | Auditin keyfiyyətinə ictimai nəzarətin təmin edilməsi | 2015 | |
| 3 | Etik prinsiplərə riayət edilməsinə nəzarətin həyata keçirilməsi | 2014- 2020 | |
| 4 | Auditor fəaliyyətinə kənar nəzarətin təmin edilməsi üçün müvafiq hüquqi və institusional tədbirlərin həyata keçirilməsi | 2015-2016 | |

| | | | |
|---|---|---|---|
| **V** | **Auditor kadrlarının hazırlanması və yenidən hazırlanması üzrə:** | | |
| 1 | Auditor adı almaq üçün tələblərin beynəlxalq qaydalara uyğunlaşdırılması | 2015 | |
| 2 | Peşə kurslarının intensivliyinin və çeşidini artırılması | 2014-2015 | |
| 3 | İxtisasartırma kurslarının icbari və davamlı xarakter daşımaqla, nəzəri və praktiki istiqamətdə təşkili | 2014-2020 | |
| 4 | Auditor adı almaq üçün imtahanların keçirilməsinin Beynəlxalq Təhsil Standartlarının tələbləri nəzərə alınmaqla təkmilləşdirilməsi və imtahanların çoxpilləli sisteminin tətbiqi | 2016 | |
| 5 | Auditorların peşə-ixtisas səviyyələrinin artırılması üzrə tematik mühazirələr, seminarlar, treninqlər, “dəyirmi masa”lar, elmi-praktik konfranslar və s. kimi əlavə tədbirlərin genişləndirilməsi | 2014-2020 | |
| 6 | Beynəlxalq audit standartlarına və Peşəkar Mühasiblərin Etika Məcəlləsinə edilmiş son əlavə və dəyişiklikləri müntəzəm olaraq auditorların ixtisasartırma kurslarının proqramına daxil edilməsi və tədrisi | 2014-2020 | |
| 7 | Əlaqəli auditor xidmətlərinin göstərilməsi üçün geniş biznes biliklərinə və ekspert səriştəliliyinə malik sertifikatlı kadrların hazırlanması | 2015-2017 | |
| **VI** | **Auditin təşkili üzrə:** | | |
| 1 | Audit sistemində hesabatlılığın təkmilləşdirilməsi | 2014-2015 | |
| 2 | Korporativ idarəetmə sistemi və audit arasında əlaqələrin gücləndirilməsi | 2015-2016 | |
| 3 | Auditor təşkilatlarının yaradılmasında və fəaliyyətində lisenziyalı auditorların iştirakının icbariliyinə nail olunması | 2015 | |
| 4 | Fəaliyyətin əsas meyar göstəriciləri olan illik dövriyyənin həcmi, işçilərin sayı ilə bağlı auditin əhatə dairəsinin dəqiqləşdirilməsi üzrə hüquqi mexanizmin müəyyən edilməsi | 2016 | |
| 5 | Müstəqil auditorun hesabatının təsərrüfat subyektinin maliyyə hesabatlarının tərkib hissəsi kimi tanınması istiqamətində tədbirlərin həyata keçirilməsi | 2015 | |
| 6 | BMF-nın Beynəlxalq Təhsil Standartlarında müəyyən edilmiş qaydada auditorların və auditor şirkətlərinin sertifikatlaşdırılması | 2015-2017 | |

| | | | |
|---|---|---|---|
| 7 | Sertifikatlaşdırılmış auditorların və auditor şirkətlərinin reyestrinin aparılması | 2017-2020 | |
| 8 | Auditorlar Palatasının strukturunun beynəlxalq təcrübəyə uyğunlaşdırılması | 2015 | |
| 9 | Auditorların və auditor təşkilatlarının akkreditasiyası və qeydiyyatının beynəlxalq təcrübəyə uyğun aparılması | 2015-2020 | |
| 10 | Könüllü və əlaqədar xidmətlərin genişləndirilməsi üzrə tədbirlər sisteminin reallaşdırılması | 2015 | |
| 11 | Auditin təşkilinin ölkədə həyata keçirilən regional inkişaf proqramları ilə uzlaşdırılması | 2015-2020 | |
| 12 | Auditin aparılmasında yüksək texnologiyalardan istifadə və elektron auditin tətbiqi | 2015-2020 | |
| 13 | Təsərrüfat subyektləri ilə auditorlar arasında interaktiv əlaqələrin təşkili | 2015-2020 | |
| 14 | Məcburi audit subyektlərinin illik maliyyə hesabatlarının auditor rəyi ilə birlikdə yerləşdiriləcək internet səhifəsinin yaradılması | 2014 | |
| 15 | Səmərəlilik, uyğunluq və digər auditlərin tətbiqinin genişləndirilməsi | 2015-2017 | |
| 16 | Xarici təcrübə nəzərə alınmaqla auditorların reytinq səviyyəsinin müəyyən edilməsi | 2014-2020 | |
| 17 | Auditin statistik göstəricilər sisteminin işlənib hazırlanması və tətbiqi | 2014 | |
| 18 | Sərbəst auditorların və auditor təşkilatlarının seçmə üsulla yoxlanması sisteminin tətbiqi | 2014– 2020 | |
| 19 | Etik prinsiplərə riayət edilməsinə nəzarət sisteminin tətbiqi | 2014-2020 | |
| 20 | Auditin təşkilinə dair xarici təcrübənin öyrənilməsi və tətbiqi | 2014-2020 | |
| 21 | Auditdə qiymətlərin tənzimlənməsi sisteminin təkmilləşdirilməsi | 2015 | |
| 22 | Sahələr və regionlar üzrə məcburi auditdən keçmənin vəziyyətinə dair analitik informasiya sisteminin yaradılması | 2015-2016 | |
| 23 | Auditin institusional potensialının gücləndirilməsi | 2015-2017 | |
| 24 | Auditorlarla əlaqələrin yüksək texnologiyaların tətbiqindən istifadə olunmaqla genişləndirilməsi və onların idarəetməyə daha aktiv cəlb edilməsi (o cümlədən komitələr və işçi qruplar çərçivəsində) | 2014-2020 | |

| | | | |
|---|---|---|---|
| 25 | Auditorların hesabatlarının interaktiv qəbulu və emalı | 2014-2020 | |
| 26 | Beynəlxalq audit təcrübəsinin daha səmərəli öyrənilməsi məqsədilə xarici ölkələrin audit qurumları ilə əlaqələrin yaradılması və birgə tədbirlərin həyata keçirilməsi üçün əməkdaşlıq sazişlərinin bağlanması | 2014-2020 | |
| 27 | Müstəqil auditin dövlət auditi və daxili auditlə əlaqələrinin təkmilləşdirilməsi | 2016 | |
| 28 | Dövlət nəzarəti ilə kənar audit arasında qarşılıqlı əlaqələrin daha təkmil qurulmasının təmin edilməsi | 2015-2017 | |
| 29 | Milli auditor təşkilatları üçün firmadaxili audit standartlarının tətbiqi | 2017-2020 | |
| 30 | Auditor xidməti göstərmək hüququ verən lisenziya və icazələrin verilməsi ilə əlaqədar elektron xidmətlərin təşkili | 2014 | |
| 31 | Təsərrüfat subyektlərində aparılan auditlərin vahid məlumat reyestrinin yaradılması | 2014 | |
| 32 | Beynəlxalq audit təcrübəsində tətbiq olunan xüsusi proqram təminatı məhsullarından (CaseWare Audit, Audit Management Software, SwissAuditor, ASL Analytics Software, AD Audit Report Software və s.) istifadənin genişləndirilməsi | 2014-2019 | |
| 33 | Auditor andı içilməsinin tətbiq edilməsi | 2015 | |
| 34 | Əməliyyat xidmətləri (iqtisadi suybektin sifarişi ilə sənədlərin – biznes planlarının, investisiya layihələrinin, müqavilələrin, qeyri-standart maliyyə və statistika hesbatlarının və s. tərtibi) göstərilməsinin tətbiqi | 2016 | |
| 35 | Nəzarət xidmətləri (sənədlərin şərtlərə uyğun tərtibinin, uçotun aparılmasının və hesabatların tərtibinin, vergi və digər ödəmələrin düzgün hesablanmasının və ödənilməsinin və s. yoxlanılması) göstərilməsinin tətbiqi | 2017 | |
| 36 | İnformasiya xidmətlərinin (bütün növ məsləhətlərin, metodik tövsiyələrin verilməsi, treninq və seminarların aparılması və s.) göstərilməsinin genişləndirilməsi | 2015-2020 | |
| 37 | Gənclərin və qadınların audit peşəsinə daha geniş cəlb olunması istiqamətində tədbirlər sisteminin hazırlanması və tətbiqi | 2015-2020 | |
| 38 | Beynəlxalq audit standartlarına və Peşəkar Mühasiblərin Etika Məcəlləsinə dair son əlavə və dəyişikliklərin müntəzəm olaraq auditorlara çatdırılmasının təşkili | 2014-2020 | |

| | | | |
|---|---|---|---|
| 39 | Auditorlar Palatasına assosiativ və affilə olunmuş üzvlüyün təşkili | 2015 | |
| **VII** | **Auditdə şəffaflığın artırılması, haqsız rəqabət və korrupsiyaya qarşı mübarizə üzrə:** | | |
| 1 | Audit proseslərində şəffaflığın təmin olunması | 2014-2020 | |
| 2 | Çirkli pulların yuyulması və korrupsiyaya qarşı mübarizə aparan orqanlarla auditorların əməkdaşlığının gücləndirilməsi | 2014-2020 | |
| 3 | Auditorların seçilməsində şəffaflığın və rotasiyanın təmin edilməsi | 2015 | |
| 4 | Məcburi audit obyektləri tərəfindən maliyyə hesabatlarının müstəqil auditor hesabatı (rəyi) ilə birlikdə dərc etdirilməsi ilə əlaqədar tədbirlərin həyata keçirilməsi | 2014-2015 | |
| 5 | Etik prinsiplərə riayət edilməsinə nəzarət sisteminin tətbiqi | 2014-2020 | |
| 6 | «Cinayət yolu ilə əldə olunmuş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında» Azərbaycan Respublikası Qanununun sərbəst auditorlar və auditor təşkilatları qarşısında yaratdığı öhdəliklərin tam yerinə yetirilməsinin davamlı təminatı | 2014-2020 | |
| 7 | Ədalətli rəqabətin təmin edilməsi və inhisarçılığa yol verilməməsi sahəsində tədbirlərin həyata keçirilməsi | 2014-2016 | |
| 8 | Auditor xidmətində maraqların toqquşmasının qarşısının alınması və mövcud olan haqsız rəqabət hallarının aradan qaldırılmasına dair tədbirlərin işlənib hazırlanması və həyata keçirilməsi | 2014-2020 | |
| 9 | Keyfiyyətsiz auditə görə ciddi sanksiyaların tətbiqinin genişləndirilməsi | 2014-2020 | |
| **VIII** | **Auditin təşkili və tənzimlənməsinə dair metodik vəsait və tövsiyələrin hazırlanması üzrə:** | | |
| 1 | Auditorların və auditor təşkilatlarının akkreditasiyası və qeydiyyatına dair normativ-metodik göstərişlərin hazırlanması | 2014 | |
| 2 | Ölkə iqtisadiyyatının öncül istiqamətləri: a) turizm; b) neft-yanacaq kompleksi; c) nəqliyyat; ç) informasiya texnologiyaları üzrə sahəvi audit proqramlarının hazırlanması | 2014-2016 | |

| | | | |
|---|---|---|---|
| 3 | Kiçik və orta müəssisələrin xüsusiyyətləri nəzərə alınmaqla auditin aparılmasına dair metodik vəsaitin hazırlanması | 2015 | |
| 4 | Auditorların metodik vəsaitlərlə (o cümlədən beynəlxalq peşəkar qurumların normativ sənədləri ilə) təminatı sisteminin təkmilləşdirilməsi və idarə edilməsi | 2014-2020 | |
| 5 | Kənar və daxili audit arasında qarşılıqlı əlaqənin qurulmasına dair tövsiyələrin hazırlanması | 2015 | |
| 6 | Milli auditor təşkilatları üçün nümunəvi firmadaxili audit standartlarının hazırlanması | 2015-2017 | |
| 7 | Əməliyyat xidmətləri (iqtisadi suybektin sifarişi ilə sənədlərin – biznes planlarının, investisiya layihələrinin, müqavilələrin, qeyri-standart maliyyə və statistika hesbatlarının və s. tərtibi) göstərilməsinə dair metodiki vəsaitlərin hazırlanması | 2015 | |
| 8 | Nəzarət xidmətləri (sənədlərin şərtlərə uyğun tərtibinin, uçotun aparılmasının və hesabatların tərtibinin, vergi və digər ödəmələrin düzgün hesablanmasının və ödənilməsinin və s. yoxlanılması) göstərilməsi və tətbiqinə dair metodik vəsaitlərin hazırlanması | 2016 | |
| 9 | Əlaqəli xidmətlərin göstərilməsini tənzimləyən normativ-metodik bazanın yaradılması | 2015-2017 | |
| 10 | Fəaliyyətin əsas meyar göstəriciləri olan illik dövriyyənin həcmi, işçilərin sayı ilə bağlı auditin əhatə dairəsinin dəqiqləşdirilməsi üzrə mexanizmin müəyyən edilməsi | 2016 | |
| 11 | Müstəqil auditorun hesabatının təsərrüfat subyektinin maliyyə hesabatlarının tərkib hissəsi kimi tanınmasına dair normativ sənədlərin layihələrinin hazırlanması | 2015 | |
| 12 | Auditorların və auditor təşkilatlarının akkreditasiyası və qeydiyyatının beynəlxalq təcrübəyə uyğun aparılması üzrə metodik göstərişin hazırlanması | 2014 | |
| 13 | Auditdə qiymətlərin tənzimlənməsi sisteminin təkmilləşdirilməsi | 2015 | |
| 14 | Auditorlar Palatasına assosiativ və affilə olunmuş üzvlüyə dair qaydanın hazırlanması | 2015 | |
| 15 | Ədalətli rəqabətin təmin edilməsi və inhisarçılığa yol verilməməsi barədə metodik göstəriş və təlimatların hazırlanması | 2014-2016 | |
| 16 | “Auditorların ixtisasartırılması qaydaları”nın Beynəlxalq Təhsil Standartlarının tələbləri nəzərə alınmaqla təkmilləşdirilməsi | 2014 | |

| | | | |
|---|---|---|---|
| **IX** | **Auditin təbliği və təşviqi üzrə:** | | |
| 1 | Auditor xidmətləri istifadəçilərinin, maraqlı tərəflərin və bütövlükdə ictimaiyyətin auditin təşviqi və təbliği sahəsində maarifləndirilməsi | 2014-2020 | |
| 2 | Auditorlar Palatasının rəsmi internet səhifəsinin imkanlarının və funksiyalarının genişləndirilməsi vasitəsilə maarifləndirmə və məlumatlandırma, habelə interaktiv sorğuların aparılması | 2014-2020 | |
| 3 | Auditə dair populyar məlumat və sorğu kitablarının nəşri | 2014-2020 | |
| 4 | Auditə dair maarifləndirici materialların nəşri və ictimaiyyətə çatdırılması | 2014-2020 | |
| 5 | Auditə dair mətbuat konfranslarının keçirilməsi | 2014-2020 | |
| **X** | **Auditdə informasiya texnologiyalarının tətbiqi üzrə:** | | |
| 1 | Auditorların hesabatlarının interaktiv qəbulu və emalı | 2014-2020 | |
| 2 | E-kargüzarlıq sisteminin tətbiqi və e-imza tətbiq olunmaqla sənəd dövriyyəsinin təşkili | 2014-2015 | |
| 3 | Müxtəlif toplantıların, o cümlədən komitə və işçi qrupların iclaslarının onlayn aparılması | 2014-2020 | |
| 4 | Videokonfrans və videoseminarların təşkili | 2015-2020 | |
| 5 | «Elektron hökumət» proqramı çərçivəsində məlumat bazalarının yaradılması, ölkə üzrə ümumi məlumat şəbəkəsinə qoşulma | 2014-2015 | |
| 6 | Auditor xidməti göstərmək hüququ verən lisenziya və icazələrin verilməsi ilə əlaqədar elektron xidmətlərin təşkili | 2014 | |
| 7 | Auditorlar Palatasının rəsmi internet səhifəsinin imkanlarının və funksiyalarının genişləndirilməsi vasitəsilə maarifləndirmə və məlumatlandırma, habelə interaktiv sorğuların aparılması | 2014-2020 | |
| 8 | Beynəlxalq audit təcrübəsində tətbiq olunan xüsusi proqram təminatı məhsullarından (CaseWare Audit, Audit Management Software, SwissAuditor, ASL Analytics Software, AD Audit Report Software və s.) istifadənin genişləndirilməsi | 2014-2019 | |

| | | | |
|---|---|---|---|
| XI | **Nəşrlər, seminar və konfransların keçirilməsi üzrə:** | | |
| 1 | Auditə dair nəşrlər sahəsində fəaliyyətin intensivləşdirilməsi | 2015-2020 | |
| 2 | Ödənişli tədbirlərin təşkili (simpozium, konsaltinq xidmətlərinin göstərilməsi) | 2015-2020 | |
| 3 | Nəşrlərin və e-məhsulların satışının artırılması | 2015-2020 | |
| 4 | Auditin aktual problemlərinə dair seminarların təşkili | 2014-2020 | |
| 5 | İnformasiya xidmətlərinin (bütün növ məsləhətlərin, metodik tövsiyələrin verilməsi, treninq və seminarların aparılması və s.) göstərilməsinin genişləndirilməsi | 2014-2020 | |
| 6 | Müvafiq ali təhsil müəssisələrində gənc auditor kadrlarının hazırlanması işinə dəstək və peşənin təbliği | 2014-2020 | |
| 7 | «Audit» dərs vəsaitinin təkrar nəşri | 2015-2016 | |
| 8 | «Audit: qanunvericilik və normativ sənədlər» toplusunun 8-ci, 9-cu və 10-cu cildlərinin nəşri | 2015, 2017, 2019 | |
| 9 | Sahəvi audit proqramlarının təkrar (4-cü və 5-ci) nəşrləri | 2015, 2018 | |
| 10 | Müasir şəraitdə auditin qarşısında duran problemlər və onların həlli yollarına həsr olunan beynəlxalq elmi-praktik konfransların təşkili (hər iki ildən bir) | 2014- 2020 | |
| 11 | Milli auditin inkişafına dair "dəyirmi masa" və konfransların təşkili | 2014-2020 | |
| 12 | "Azərbaycanda auditin regional problemləri və şəffaflıq" mövzusunda regional seminar və konfransların təşkili | 2015-2020 | |
| 13 | Auditor xidmətinə dair yeni reklam və təşviqat üsullarından geniş istifadə olunması | 2014-2020 | |
| XII | **Təhlil, tədqiqat və sosioloji sorğular üzrə:** | | |
| 1 | Təhlillər, iqtisadi tədqiqatlar və araşdırmalar aparılması istiqamətində fəaliyyətin genişləndirilməsi | 2014-2020 | |
| 2 | Xidmət bazarının öyrənilməsi və proqnozlaşdırılması istiqamətində fəaliyyət intensivləşdirilməsi | 2014-2020 | |

| | | | |
|---|---|---|---|
| 3 | Auditorların peşə etikası qayda və normalarına riayət etməsinə dair xüsusi tədqiqatların aparılması | 2014-2020 | |
| 4 | Auditor xidməti sahəsində «qiymət – keyfiyyət» münasibətləri sahəsində tədqiqatların aparılması | 2017-2019 | |
| 5 | Auditor xidməti bazarının regionlar və sahələr üzrə inkişafının proqnozlaşdırılması | 2015-2017 | |
| **XIII** | **Beynəlxalq audit təcrübəsinin tətbiqi üzrə:** | | |
| 1 | Beynəlxalq peşəkar təşkilatlara üzvlük, onlarla əlaqələr, habelə xarici ölkələrin peşəkar qurumları ilə səmərəli əməkdaşlıq istiqamətində fəaliyyət | 2014-2020 | |
| 2 | Beynəlxalq audit təcrübəsinin daha səmərəli öyrənilməsi məqsədilə xarici ölkələrin audit qurumları ilə əlaqələrin yaradılması və birgə tədbirlərin həyata keçirilməsi üçün əməkdaşlıq sazişlərinin bağlanması | 2014-2020 | |
| 3 | Auditin hüquqi bazasının təkmilləşdirilməsinə dair beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi üzrə müvafiq təkliflərin hazırlanması | 2014-2020 | |
| 4 | Auditin idarə edilməsi və tənzimlənməsi sahəsində beynəlxalq təcrübənin tətbiqinin genişləndirilməsi | 2015-2017 | |
| 5 | Auditorlar Palatasının strukturunun beynəlxalq təcrübəyə uyğunlaşdırılması | 2015 | |
| 6 | Beynəlxalq audit təcrübəsində tətbiq olunan xüsusi proqram təminatı məhsullarından (CaseWare Audit, Audit Management Software, SwissAuditor, ASL Analytics Software, AD Audit Report Software və s.) istifadənin genişləndirilməsi | 2014-2019 | |
| 7 | Auditorların və auditor təşkilatlarının akkreditasiyası və qeydiyyatının beynəlxalq təcrübəyə uyğun aparılması | 2015-2020 | |
| 8 | Xarici təcrübə nəzərə alınmaqla auditorların reytinq səviyyəsinin müəyyən edilməsi | 2014-2020 | |
| 9 | Auditin statistik göstəricilər sisteminin işlənib hazırlanması və tətbiqi | 2014 | |
| 10 | Auditin təşkilinə dair xarici təcrübənin öyrənilməsi və tətbiqi | 2014-2020 | |
| 11 | Auditdə qiymətlərin tənzimlənməsi sisteminin təkmilləşdirilməsi | 2015 | |
| 12 | Auditorların hesabatlarının interaktiv qəbulu və emalı | 2014-2020 | |

# MÜNDƏRİCAT


**G İ R İ Ş ......................................................................................................................... 4**
**1. MÜASİR ŞƏRAİTDƏ AUDİTİN VƏZİFƏLƏRİ VƏ İSLAHATLARIN ZƏRURİLİYİ ......................8**
**2. AZƏRBAYCANDA AUDİTOR XİDMƏTİNİN MÜASİR VƏZİYYƏTİ.........................................11**
**3. AZƏRBAYCANDA AUDİTOR XİDMƏTİNİN İNKİŞAFINA MANE OLAN PROBLEMLƏR.......17**
**3.1. Qanunvericilikdə olan boşluqlar.........................................................................................17**
**3.2. Məcburi auditdən keçmənin aşağı olması..........................................................................19**
**3.3. Auditor xidməti sahəsində haqsız rəqabət və maraqların toqquşması ............................................ 21**
**4. AUDİTOR XİDMƏTİNİN İNKİŞAF KONSEPSİYASININ ƏSAS İSTİQAMƏTLƏRİ ......................22**
**4.1. Auditor xidmətinin normativ hüquqi bazasının təkmilləşdirilməsi................................................... 23**
**4.2. Auditor xidmətinin təşkilinin təkmilləşdirilməsi.................................................................24**
**4.3. Auditor xidmətinin tənzimlənməsinin və idarə edilməsinin təkmilləşdirilməsi ...................................25**
**4.4. Auditor kadrlarının hazırlanması.........................................................................................27**
**4.5.Auditor xidmətinin keyfiyyətinin yüksəldilməsi və nəzarətin təkmilləşdirilməsi ..................................29**
**4.6. Beynəlxalq audit təcrübəsinin tətbiqi.................................................................................30**
**4.7. Müstəqil auditin dövlət auditi və daxili auditlə əlaqələrinin təkmilləşdirilməsi .............................32**
**4.8. Beynəlxalq audit standartlarının tətbiqinin genişləndirilməsi............................................................33**
**4.9. Auditor xidmətində İKT-nin tətbiqi məsələləri..................................................................34**
**4.10. Auditdə etika məsələləri .....................................................................................................37**
**4.11. Auditor xidmətlərinin növlərinin genişləndirilməsi sahəsində imkanlar ............................................38**
**4.12. Auditdə maraqların uzlaşdırılması, sağlam rəqabət mühitinin yaradılması yolları və qiymətqoyma məsələləri ........................................................................39**
**5. AZƏRBAYCAN RESPUBLİKASINDA AUDİTOR XİDMƏTİ BAZARININ İNKİŞAFININ PROQNOZLAŞDIRILMASI VƏ GÖZLƏNİLƏN NƏTİCƏLƏR .................................42**
**“AZƏRBAYCAN RESPUBLİKASINDA AUDİTOR XİDMƏTİNİN İNKİŞAF KONSEPSİYASI”NDA 2014-2020-ci İLLƏRDƏ HƏYATA KEÇİRİLMƏSİ NƏZƏRDƏ TUTULMUŞ TƏDBİRLƏRİN İCRASININ TƏQVİM PLANI ...........................................53**



**Azərbaycan Respublikası Auditorlar Palatası:**

**AZ1072, Bakı şəhəri, S.Y.Bakuvi küçəsi, 14.**

**E-mail: audit-azerbaijan@audit.gov.az**
**http:// www.audit.gov.az**

**Tel/faks: (94-012) 498-28-58**
**Telefonlar: (94-012) 465-65-48, 465-65-35, 564-80-62**